## Kənd təsərrüfatı naziri vəzifəsindən azad edilib

Nazir vəzifəsinin icrası Sarvan Cəfərova həvalə olunub




**İnam İmdad oğlu Kərimov Azərbaycanın kənd təsərrüfatı naziri vəzifəsindən azad edilib.**

Bu barədə Prezident İlham Əliyev sərəncam imzalayıb.

Dövlət başçısının digər sərəncamı ilə Azərbaycanın kənd təsərrüfatı naziri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası kənd təsərrüfatı nazirinin müavini Sarvan Elxan oğlu Cəfərova həvalə edilib.



## Naxçıvana 23 km qaldı

Ordumuzun durduğu mövqe bəlli oldu

**Hazırda Azərbaycan Ordusunun Şərqi Zəngəzur hüdudlarında tutduğu mövqedən Naxçıvan dağları aydın görünür.**

Axar.az xəbər verir ki, bununla bağlı xəritə "Hans Kloss" səhifəsində yayılıb.

Bildirilib ki, 3235,5 metr yüksəklikdə yerləşən mövqeyimizlə Naxçıvan arasında təxminən 23-25 km məsafə var.

❒ № 58 (5819) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 5 aprel 2023-cü il (çərşənbə)



# Edamlar artır

BMT-nin İnsan Hüquqları Şurası İran əleyhinə qətnamə qəbul edib

**Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurası İranda edamların artmasını, insan haqlarının geniş və kobud şəkildə pozulmasını və zorakılıqda iştirak edənlərə diplomatik toxunulmazlığı pisləyən qətnamə qəbul edib.**

Qərar dünən Cenevrədə Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurasının 47 üzv dövlətindən 23-nün səs verməsi ilə təsdiq edilib.

Kuba, Çin, Pakistan və Vyetnam da daxil olmaqla 16 ölkə səsvermədə bitərəf qalıb, İnsan Hüquqları Şurasının 8 üzvü isə qətnamənin əleyhinə səs verib.

(səh.2)




## Xeyirli olsun!

Türkiyənin ilk yerli elektromobili Azərbaycan Prezidentinə təqdim olunub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünən Türkiyə Respublikasının sənaye və texnologiya naziri Mustafa Varankı qəbul edib.**

Türkiyənin ilk yerli elektromobili "Togg"un istehsalı ilə bağlı təbriklərini çatdıran dövlət başçısı onun Bakıya gətirilməsindən məmnunluğunu bildirib, bununla bağlı Türkiyə dövlətinin başçısına minnətdarlığını ifadə edib. Azərbaycan Prezidenti bu tipli avtomobilin ikincisinin ölkəmizdə olmasını dostluq və qardaşlıq münasibətlərimizin təzahürü kimi dəyərləndirib.

(səh.2)

## Finlandiya NATO-nun 31-ci üzvü olub

Çavuşoğlu finlandiyalı həmkarını təbrik edib



**NATO xarici işlər nazirləri Finlandiyanın alyansa üzv olması barədə sənədi ABŞ-a təqdim ediblər.**

Bununla Finlandiya rəsmən NATO-nun 31-ci üzvü olub.

Türkiyə XİN rəhbəri Mövlud Çavuşoğlu NATO-ya üzvlük məsələsinin yekunlaşması münasibəti ilə Finlandiyadan olan həmkarını təbrik edib.

O bu barədə "Twitter"də yazıb.

"Finlandiyanın xarici işlər naziri Pekka Haavisto ilə Brüsseldə keçirdiyimiz ilk görüşümüzdə Alyansın yeni üzvü Finlandiyanı təbrik etdik", - paylaşımda deyilir.

# Mayın 10-na kimi Laçın yolunda post qoyulması gözlənilir

## Azərbaycan Qarabağ ətrafında və Ermənistanla şərti sərhəddə mövqelərini möhkəmləndirir



**"May ayının 10-na kimi Laçın yolunda post qoyulması gözlənilir". Bu barədə "Şərq"ə politoloq Məhəmməd Əsədullazadə deyib. Ekspert bildirib ki, Azərbaycan Laçın yolu ətrafında və Ermənistanla şərti sərhəddə mövqelərini möhkəmləndirir:**

"Həmçinin Qarabağa alternativ yollara nəzarəti bərpa etməklə separatçılar üzərində təzyiqləri gücləndiririk. Demək olar ki, Ermənistanla Qarabağda separatçılar arasında hərbi logistik əlaqələr kəsilib. Azərbaycan Ordusu mühüm strateji yüksəkliklər və Şuşanın iki kəndinə nəzarəti ələ almaqla Ermənistanla şərti sərhəddə yeni ərazilərdə yerləşib. Bütün proseslər Xankəndidə Azərbaycanın de-yure suverenliyinin bərpasına hesablanıb. Bu il ərzində Ermənistandan Qarabağın erməni icmasına qaz və elektrik xətti dayandırıla bilər. Azərbaycan özü Xankəndi və ətrafını qaz və elektrik enerjisi ilə təmin etməsi gözlənilir. Qarabağda silahlı erməni birləşmələrinin ləğvinə gəldikdə isə bu məsələ də öz həllini tapacaq.

(səh.3)

# "Ziya Bünyadovun, Rafiq Tağının qətlinin sifarişi də İrandan gəlmişdi"

## Deputatlar Fazil Mustafaya qarşı törədilən terror aktını kəskin şəkildə qınayıblar




**Dünən Milli Məclisin növbəti iclası keçirilib. İclasa Parlament sədrinin birinci müavini Əli Hüseynli sədrlik edib.**

Cari məsələlərlə bağlı çıxış edən deputatlar həmkarları, millət vəkili Fazil Mustafaya qarşı törədilən terror aktını kəskin şəkildə qınayıblar. Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva əminliklə bildirib ki, bu kimi terror işində əli və vasitəçiliyi olanlar layiqli cəzasını almalıdır və alacaq:

(səh.3)



## Paşinyanın istefası tələb olunur

Ermənistan parlamentinin qarşısında mitinq keçirilib

**Ermənistan parlamentinin binası qarşısında mitinq keçirilib, Paşinyanın istefası tələb olunub.**

"Report" xəbər verir ki, bu barədə "Sputnik Armenia" məlumat yayıb.

Bildirilib ki, aksiyada iştirak edənlər arasında 44 günlük müharibədə həlak olan hərbçilərin valideynləri də var.

Onlar Ermənistan dövlətinin təhlükəsizliyini təmin etmək üçün Nikol Paşinyan rejiminin istefasını tələb ediblər.

Məlumata görə, aksiya dinc şəkildə keçirib və xəbərdarlıq xarakteri daşıyıb.

## 4 nəfər vəfat edib

85 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 85 yeni yoluxma faktı qeydə alınıb, 69 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 4 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 829 955 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 819 310 nəfər müalicə olunaraq sağalıb, 10 189 nəfər vəfat edib, aktiv xəstə sayı 456 nəfərdir.

*Ölkədə son sutka ərzində 1 353, hazırkı dövrədək isə 7 562 699 test aparılıb.*

## Ağstafada qatar bir nəfəri vuraraq öldürüb



**Gəncə Dəmir yolu Xətt Polis Şöbəsinin Ağstafa Xətt Polis Bölməsinə bir nəfərin qatar vurması barədə məlumat daxil olub.**

DİN-in mətbuat xidmətinin Gəncə regional qrupundan bildirilib ki, dərhal Gəncə Xətt Polis Şöbəsinin və Ağstafa Rayon Prokurorluğunun əməkdaşları hadisə yerinə gələrək müvafiq araşdırmalar aparıb. İlkin araşdırmalar nəticəsində yük qatarının Ağstafa rayon sakini 2009-cu il təvəllüdlü Elşən Bayramovu vuraraq öldürməsi məlum olub. Hazırda Rayon prokurorluğunda hadisənin başvermə səbəbləri araşdırılır.



## "Sanki əlləri bala batacaq"

Aqil Ələsgər: "Azərbaycanda da müəyyən kəsim Ərdoğanın hakimiyyətdən getməsi üçün əlindən gələni əsirgəmir"

(səh.4)



## Bir ayda ölkədə avtomatla 4 cinayət törədilib

Sərdar Cəlaloğlu: "Sual yaranır ki, bu tip silahların vətəndaşlarda nə işi var?"

(səh.4)

# Xeyirli olsun!

## Türkiyənin ilk yerli elektromobili Azərbaycan Prezidentinə təqdim olunub



### İlham Əliyev: "Türkiyənin ilk yerli elektromobilinin ikincisinin Azərbaycanda olması dostluq və qardaşlığımızın təzahürüdür"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünən Türkiyə Respublikasının sənaye və texnologiya naziri Mustafa Varankı qəbul edib.**

Türkiyənin ilk yerli elektromobili "Togg"un istehsalı ilə bağlı təbriklərini çatdıran dövlət başçısı onun Bakıya gətirilməsindən məmnunluğunu bildirib, bununla bağlı Türkiyə dövlətinin başçısına minnətdarlığını ifadə edib.

Azərbaycan Prezidenti bu tipli avtomobilin ikincisinin ölkəmizdə olmasını dostluq və qardaşlıq münasibətlərimizin təzahürü kimi dəyərləndirib.

Dünən Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarla görüşünü xatırladan Prezident İlham Əliyev qardaş ölkədə son illərdə həm müdafiə sənayesi, həm də mülki sənaye sahələrində yüksək texnoloji məhsulların istehsal olunduğunu deyib, bunun Türkiyə Prezidenti Rəcəp Tayyib Ərdoğanın liderliyi ilə Türkiyə xalqının zəkası, istedadı və əməyi nəticəsində ərsəyə gəldiyini vurğulayıb və "Togg"un istehsalına başlanılmasını da bu baxımdan yaxşı nümunə olduğunu bildirib.

Dövlət başçısı əldə olunan bütün bu uğurlar münasibətilə Türkiyə Prezidentinə, dost və qardaş Türkiyə xalqına təbriklərini çatdırıb.

Mustafa Varank "Togg"un ikinci avtomobilinin Azərbaycanda olmasından Türkiyə Prezidenti və xalqının qürur hiss keçirdiyini bildirib.

Söhbət zamanı Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən sənaye və texnologiya sahələrində inkişafından məmnunluq ifadə olunub, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Aprelin 4-də Türkiyənin ilk yerli elektromobili "Togg" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim olunub.

Bu barədə Azərbaycan Prezidentinin Mətbuat Xidməti məlumat yayıb.

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkəsinin ilk yerli elektromobili "Togg"un Azərbaycan Prezidenti İlham Əliyevə təqdim olunması ilə bağlı paylaşım edib.**

*Paylaşımda deyilir:*

"Qardaşım İlham Əliyev də Türkiyənin qüruru "Togg"u təhvil alıb. Xeyirli olsun. Allah gözəl günlərdə istifadə etməyi qismət etsin, qardaşım".

**Azərbaycan Prezidenti İlham Əliyev türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğana təşəkkür edib.**

*Dövlət başçısı bununla bağlı sosial media hesabında paylaşım edib.*

"Təşəkkür edirəm, Əziz Qardaşım. Amin! TOGG Sizin liderliyiniz altında qardaş Türkiyənin elmi-sənaye potensialının inkişafının daha bir bariz nümunəsidir", - deyə paylaşımda deyilir.



**İnam İmdad oğlu Kərimov Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri təyin edilib.**

Prezident İlham Əliyev bununla bağlı sərəncam imzalayıb.

Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İnam İmdad oğlu Kərimov 1977-ci ilin 6 iyununda Bakı şəhərində anadan olub. 1984-1994-cü illərdə Bakı şəhərində Humanitar fənlər Gimnaziyasında təhsil alıb. 1994-1995-ci ildə ABŞ-ın İndiana ştatında Richmond High School-da

# İnam Kərimov Ali Məhkəmənin sədri təyin edilib

## Prezident İlham Əliyev bununla bağlı sərəncam imzalayıb

təhsilini davam etdirib. 1995-ci ildə Bakı Dövlət Universitetinin Beynəlxalq hüquq fakültəsinə qəbul olunub. 1998-2000-ci illərdə Fransanın Strasburq Universitetində Hüquq üzrə bakalavr, 2000-2002-ci illərdə isə Sorbonna Universitetində hüquq üzrə magistr təhsili alıb.

2013-cü ildə Sorbonna Universitetində hüquq üzrə doktor (docteur en droit) elmi dərəcəsi alıb. 2004-2012-ci illərdə Azərbaycan Prezidentinin Administrasiyasında baş məsləhətçi vəzifələrində çalışıb.

2005-2012-ci illərdə Azərbaycanın Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının katibi olub.

2005-2012-ci illərdə Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupunda (GRECO) Azərbaycanın nümayəndə heyətinə rəhbərlik edib.

2012-2018-ci illərdə Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri, 2018-2023-cü illərdə kənd təsərrüfatı naziri vəzifəsində çalışıb.

İngilis, fransız, fars və rus dillərini bilir.

*Evlidir, iki övladı var.*

# Türk dövlətləri arasında sadələşdirilmiş gömrük dəhlizi yaradılır

## Məqsəd dövlətlərarası ticari əlaqələri və dövriyyəni daha da inkişaf etdirməkdir

**Parlamentdə müzakirə olunan məsələlərdən biri də türk dövlətləri arasında sadələşdirilmiş gömrük dəhlizi yaradılmasıdır. Bu barədə qanun layihəsi Milli Məclisin dünənki iclasında müzakirəyə çıxarılıb və müzakirələrdən sonra bir oxunuşda qəbul edilib.**



Bundan başqa, Türk Dövlətləri Təşkilatına üzv dövlətlər arasında beynəlxalq kombinə edilmiş yük daşımaları həyata keçiriləcək. Xatırladaq ki, Türk Dövlətləri Təşkilatı yarandığı zaman onun dörd üzv ölkəsi - Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan olduğu halda, bu gün artıq təşkilatda beş üzv ölkə var. Özbəkistan 2019-cu ildə TDT-yə üzv olub. 6 türk dövlətindən 5-i təşkilatın üzvüdür, Türkmənistan isə müşahidəçi statusuna malikdir. Macarıstan da müşahidəçi qismində təşkilata qoşulub və təşkilatın Macarıstanda da ofisi fəaliyyət göstərir. Türk Dövlətləri Təşkilatı yarandıqdan sonra Almatı, Bişkek, Qəbələ, Bodrum, Astana, Çolpan-Ata, Bakı, İstanbul, Səmərqənddə olmaqla doqquz Zirvə görüşü keçirilib. Ekspertlərin fikrincə, gömrük dəhlizi və kombinə edilmiş yük daşımaları türk respublikaları arasındakı münasibətləri daha da dərinləşdirəcək.

**Millət vəkili Vüqar Bayramov "Şərq"ə açıqlamasında deyib ki, son illər Türk Dövlətləri Təşkilatına üzv ölkələr arasında münasibətlərin yaxşılaşması bütövlükdə ticarət dövriyyəsində artımlara səbəb olub.** Deputatın sözlərinə görə, sadələşdirilmiş gömrük rejiminin yaradılmasında məqsəd dövlətlərarası ticari əlaqələri və dövriyyəni daha da inkişaf etdirməkdir: "Azərbaycanın türk dövlətləri ilə ticarət dövriyyəsi 2020-ci ildə 70 faiz artaraq 7 milyard 200 milyon dollara qədər yüksəlib. Bu da ondan xəbər verir ki, Azərbaycanla türk dövlətləri arasında ticari əlaqələrin genişlənməsi müşahidə olunur. Yeni gömrük rejiminin yaradılması isə türk dövlətləri arasında ticarətin daha da böyüməsinə təkan verəcək. Nəzərə alaq ki, prosedurun asanlaşdırılması infrastrukturunu inkişaf etdirməklə dövriyyənin genişləndirilməsinə imkan verəcək. Eyni zamanda Azərbaycanla Orta Asiyada yerləşən türk dövlətləri arasında vergidən azad olma güzəştləri də var. Həmçinin Türkiyə-Azərbaycan arasında 15 əsas mal qrupu üzrə vergidən azad olunma tətbiq olunacaq. Ümumilikdə yeni qanun layihəsində nəzərdə tutulmuş güzəştlər türk dövlətləri arasında əməkdaşlığın dərinləşməsinə xidmət göstərəcək".

**İsmayıl Qocayev**

# "Azərbaycan erməni sakinlərin reinteqrasiyasında qərarlıdır"

## Ceyhun Bayramov BMT QAK-ın Azərbaycandakı yeni nümayəndəsi ilə görüşüb



**Xarici işlər naziri Ceyhun Bayramov aprelin 4-də BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycana yeni təyin olunmuş nümayəndəsi Bik Lum ilə görüşüb. Nazir B.Lumu təyinatı münasibətilə təbrik edib, ona yeni vəzifəsinin icrasında uğurlar arzulayıb.**

Bu barədə "Şərq"ə Azərbaycan XİN-dən məlumat verilib.

Görüş zamanı müqabil tərəfi keçmiş Ermənistan-Azərbaycan münaqişəsi və onun nəticələri barədə məlumatlandıran C.Bayramov Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü və Azərbaycanın müstəqilliyinin ilk illərinə təsadüf edən bu ağır dövrdə Qaçqınlar üzrə Ali Komissarlığın ölkəmizlə əməkdaşlığını məmnuniyyətlə xatırladığını bildirib.

Nazir həmçinin münaqişədən sonrakı dövrdə işğaldan azad edilmiş ərazilərdə aparılan intensiv bərpa və yenidənqurma işlərindən bəhs edərək bu işlər çərçivəsində artıq məcburi köçkünlərin Ağalı və Talış kəndlərinə qayıtmağa başladığını qeyd edib. Ceyhun Bayramov ölkəmizin həmçinin erməni sakinlərin reinteqrasiyasında qərarlı olduğunu vurğulayıb.

Bununla yanaşı, Azərbaycanın sülh təşəbbüslərinə baxmayaraq Ermənistan tərəfindən hərbi-siyasi təxribatlar diqqətə çatdırılıb. İşğal dövründə beynəlxalq təşkilatların missiyalarına imkan yaratmayan Ermənistan tərəfinin son zamanlar beynəlxalq təşkilatlardan öz məkrli niyyətləri üçün istifadə cəhdlərinin qəbuledilməz olduğu vurğulanıb.

BMT nümayəndəsi Azərbaycanla təmsil etdiyi qurum arasında əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə edərək, yeni təyin olunduğu vəzifəsində bu müsbət dinamikanı saxlamağa çalışacağını və bu istiqamətdə əlindən gələni əsirgəməyəcəyini bildirib. Azərbaycanlı məcburi köçkünlər üçün son 30 il ərzində çoxsaylı layihələr həyata keçirildiyini, onların öz yurdlarına qayıdışının təmin olunması ilə bağlı təmsil etdiyi qurum tərəfindən dəstək göstərilməsinə hazır olduqları qeyd olunub.

Görüş zamanı qarşılıqlı maraq doğuran regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



# Edamlar artır

## BMT-nin İnsan Hüquqları Şurası İran əleyhinə qətnamə qəbul edib

**Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurası İranda edamların artmasını, insan haqlarının geniş və kobud şəkildə pozulmasını və zorakılıqda iştirak edənlərə diplomatik toxunulmazlığı pisləyən qətnamə qəbul edib.**

APA xəbər verir ki, qərar dünən Cenevrədə Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurasının 47 üzv dövlətindən 23-nün səs verməsi ilə təsdiq edilib.

Kuba, Çin, Pakistan və Vyetnam da daxil olmaqla 16 ölkə səsvermədə bitərəf qalıb, İnsan Hüquqları Şurasının 8 üzvü isə qətnamənin əleyhinə səs verib.

Qətnamədə İranda insan haqlarının kobud, dəfələrlə və davamlı şəkildə pozulmasından dərin təəssüf hissi ifadə edilir, edamların sayının artması, o cümlədən xalq etirazlarında həbs olunanların edam edilməsi ilə bağlı narahatlıq ifadə edilir.

Qətnamədə İranda "cins, etnik mənşə, din və ya siyasi fikirlərə əsaslanan sistematik ayrı-seçkilik və zorakılığı" pislənilib.

BMT-nin İrandakı insan hüquqları üzrə xüsusi məruzəçisi Cavid Rəhmanın da mandatı daha bir il uzadılıb. İran Xarici İşlər Nazirliyinin sözçüsü Nasir Kənani qətnaməni rədd edib, Cavid Rəhmanın səlahiyyət müddətinin uzadılmasını pisləyib.

Xatırladaq ki, İranda etiraz aksiyaları ötən il sentyabrın 17-də 22 yaşlı Məhsa Əmininin hicab qaydalarına riayət etmədiyi üçün işgəncə nəticəsində öldürülməsindən sonra başlayıb. Etirazlarda iştirakına görə, 4 nəfər edam edilib. İran təhlükəsizlik qüvvələri 500-dən çox etirazçını öldürüb.

# Avropa Birliyi Ermənistana 80 milyon 300 min dollar yardım ayırıb

## Bu, Rusiyadan uzaq durmaq üçün Ermənistana verilən ilk dəstəkdir

**Ermənistan Parlamentinin sədri Alen Simonyan bildirib ki, Roma Statusunu ratifikasiya etmək üçün tələsməyə ehtiyac yoxdur. O qeyd edib ki, İrəvan həmişə Rusiya ilə müttəfiq olub və ona qarşı heç bir xüsusi addım atmayıb.**



Rusiya Prezidenti Vladimir Putinin həbsinə order verən Beynəlxalq Cinayət Məhkəməsinin yurisdiksiyasının İrəvanda tanınması ilə bağlı müzakirələrə toxunan spiker bildirib ki, Putinin Ermənistan tərəfindən həbs edilməsi ilə bağlı müzakirələr absurddur. Qeyd edək ki, Ermənistan Konstitusiya Məhkəməsinin ölkənin bu yaxınlarda Putinin həbsinə order vermiş BCM-nin Roma Statutuna qoşulması üçün müsbət rəy verməsi Rusiyada ciddi tənqidlərə səbəb olmuşdu. Moskva qeyri-rəsmi kanallar vasitəsilə İrəvana Roma Statusunun ratifikasiya edəcəyi təqdirdə ağır cavab alacağını vurğulamışdı.

**Politoloq Azər Qasımov "Şərq"ə açıqlamasında bildirib ki, Ermənistan hökuməti şou düzəltməklə gündəmə gəlmək, öz məqsədlərinə nail olmaq istəyir.** Əslində İrəvan hakimiyyəti yaxşı başa düşür ki, Rusiya Prezidenti V.Putinin Ermənistanda həbs olunması məsələsi xülyadır: "Ermənistan rəsmiləri də bunu absurd adlandırırlar. Ölkə gündəmində bu məsələ ilə əlaqəli fikirlərin yayılması məlum ifadəni yada salır, - "sən bunun boyuna bax, kişnəməyinə bax". Ermənistan özünü elə bir yerdə görür ki, Rusiya Prezidentini həbs etmək niyyətinə düşür?! Qərb Ermənistanın siyasi çəkisini hamıdan yaxşı bilir. Qərb o qədər ağılsız deyil ki, İrəvan qarşısında belə bir tələb qoysun. Rusiya-Ukrayna müharibəsinə görə tətbiq edilən sanksiyalar fonunda bir sıra maxinasiyalarla Rusiyanın düşdüyü vəziyyətdən çıxarılması istiqamətində addımlar atılır. Bu məqsədlə Ermənistanı Roma statusuna qoşulmaqla çəkindirmək istəyir. Daha doğrusu, Rusiyanın Ermənistanı sanksiyalarla əlaqəli işə məcbur etməsinin qarşısını almaq və Ermənistanın bu dəstəkdən imtina etməsinə hüquqi dayanaq yaratmaq istəyir. Çox güman, Ermənistan Qərbdən bunun əvəzində kompensasiya tələb edib. Ermənistana maliyyə dəstəyinin ayrılması ilə əlaqəli xəbərlər yayılıb. Avropa Birliyi Ermənistana 80 milyon 300 min dollar yardım ayırıb. Bu, hesab edirəm ki, Rusiyadan uzaq durmaq üçün Ermənistana verilən ilk dəstəkdir".

**İsmayıl Qocayev**

# Aralarında qazi və şəhid anaları var

## Qənirə Paşayeva deyib ki, həbsxanadakı qadınların bir çoxu əslində qurbanlardır

**"Biz qadın həbsxanasında olduq və məhbus həyatı yaşayan xanımlarla görüşdük. Sizə qadınlarımızın müraciətini çatdırmaq istəyirəm".**



Bu sözləri Milli Məclisin dünənki iclasında çıxış edən Parlamentin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva deyib. Deputat bildirib ki, həbsxanadakı qadınların bir çoxu əslində qurbanlardır: "Həmin qadınlar cəzalarının çox hissəsini çəkiblər, xətalarını başa düşüblər. İndi də əfv edilmələri üçün xahiş edirlər. Aralarında qazi və şəhid anaları var. Sağlamlıq imkanları həddindən artıq ağır qadınlar var. Onlar cənab Prezidentin mərhəmətinə, humanistliyinə ümid edərək, dövlətimizin bu istiqamətdə atdığı addımlara, gördüyü işlərə inanaraq müraciət üNvanlayırlar. Biz də onların xahişini buradan səsləndirərək, dövlətimizə, ölkə başçısına, Əfv Komissiyasına müraciət edirik ki, məhbus həyatı yaşayan qadınların əfv məsələsinə baxılsın".

**İsmayıl**

# ABŞ Azərbaycan liderliyini alqışlayır

**Azərbaycan Prezidentinin Avropa İttifaqı ilə enerji təhlükəsizliyi ilə bağlı strateji tərəfdaşlığın yüksək qiymətləndirir və alqışlayırıq.**



Bunu ABŞ-ın ticarət katibinin qlobal bazarlar üzrə köməkçisi və ABŞ və xarici Ticarət Xidmətləri üzrə baş direktoru Arun Venkataraman media üçün brifinqdə bildirib.

O, Azərbaycanın hazırkı vəziyyətdə tarixi rol oynadığını bildirib.

"Azərbaycan hazırkı vəziyyətdə tarixi rol oynayır, Azərbaycanın liderliyini alqışlayırıq. Avropa qitəsində enerji çatışmazlığı böhranı olduğu zamanda Azərbaycanın göstərdiyi liderliyə görə minnətdarıq. Biz görürük ki, Azərbaycan kimi ölkələrə irəli addımlayaraq əsl liderlik göstərir və bu böhranın həlli istiqamətində tarixi addımlar atır", - ABŞ ticarət katibinin köməkçisi qeyd edib.

# "Ziya Bünyadovun, Rafiq Tağının qətlinin sifarişi də İrandan gəlmişdi"

## Deputatlar Fazil Mustafaya qarşı törədilən terror aktını kəskin şəkildə qınayıblar



**Dünən Milli Məclisin növbəti iclası keçirilib. İclasa Parlament sədrinin birinci müavini Əli Hüseynli sədrlik edib. Cari məsələlərlə bağlı çıxış edən deputatlar həmkarları, millət vəkili Fazil Mustafaya qarşı törədilən terror aktını kəskin şəkildə qınayıblar. Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva əminliklə bildirib ki, bu kimi terror işində əli və vasitəçiliyi olanlar layiqli cəzasını almalıdır və alacaq: "Deputata atılan güllə dövlətimizə və xalqımıza qarşı atılan güllədir. Bu şəbəkəni xaricdən idarə edənlər bilməlidir ki, Azərbaycan dövləti, xalqını qorxutmaq olmaz".**

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov bildirib ki, Azərbaycanın müstəqil daxili və xarici siyasəti İranın xoşuna gəlmir. Onun sözlərinə görə, İranın həzm edə bilmədiyi digər məsələ Azərbaycanın Vətən müharibəsində zəfəridir: "İran daim Azərbaycana qarşı bu cür münasibət göstərib. Ziya Bünyadovun, Rafiq Tağının qətlinin sifarişi də İrandan gəlmişdi. Belə hücumlar heç bir nəticə verməyəcək, Azərbaycanın təhlükəsizliyi etibarlı əllərdədir, bu hücumları quranların elə özlərinin başında çatlayacaq".

### "Terror aktı ilə gözümüzü qorxutmaq istəyirlərsə, səhv edirlər"

Parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov isə bildirib ki, Fazil Mustafaya qarşı terror aktı ilə gözümüzü qorxutmaq istəyirlərsə, səhv edirlər: "İranın da, başqa dövlətlərin də əlaltılarına xəbərdarlıq edirik ki, özlərini yığışdırsınlar. Deputat Fazil Mustafaya qarşı törədilən terror aktını Azərbaycana qarşı törədilən terror kimi qiymətləndirirəm. Bu məsələ ilə bağlı öz mövqeyimizi açıq şəkildə ortaya qoymalıyıq. Bizim üzərimizə sovet qoşunları gəlib, 5 dəfə hakimiyyət çevrilişi etmək istəyiblər. Ulu Öndər Heydər Əliyevin yürütdüyü siyasətlə Azərbaycan xalqı rahat nəfəs alır. Sərhədə İrana qarşı da vuruşa bilərik. İran dövləti Naxçıvan ərazisinə yaxın yerlərə qoşun yığıb, orada döyüşməyə də hazırıq. Qoy bilsinlər ki, Azərbaycan 90-cı ilin Azərbaycanı deyil. Bu gün Azərbaycan güclü dövlətdir".

### "Artıq daşları yığmaq zamanıdır. Özlərini yığışdırsınlar, sonra pis olacaq"

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc deyib ki, dəyərli millət vəkili Fazil Mustafaya qarşı silahlı hücuma Milli Məclisdə hüquqi-siyasi qiymət verilir, sifarişçiləri və təşkilatçıları ifşa edilən qəsdin məhz terror aktı olduğunu təsdiqləyir. O qeyd edib ki, martın 4-ü Bakıda hipermarketə hücum, martın 9-u Bakıda silahlı atışma və martın 28-i millət vəkilinə suiqəsd vahid bir zəncirdə birləşir: "Terrorun silahı nə olursa-olsun - tapança, avtomat, bomba, - onun əsas niyyəti xalqın üzərində dövlətdən üstün hakimiyyət qazanmaq, qorxu, xof və panika ilə ictimai təhlükəsizliyə zərbə vurmaq və bu yolla dövlət siyasətlərinə təsir göstərməkdir".

Milli Məclisin deputatı Əli Məsimli söyləyib ki, Fazil Mustafaya qarşı edilən sui-qəsdin məqsədi ölkədə xaos yaradılmasına, sabitliyin pozulmasına nail olmaqdır: "Amma Azərbaycanın hüquq-mühafizə orqanları terror şəbəkəsinə imkan verməyəcək ki, meydan sulasınlar". Deputat qeyd edib ki, Azərbaycan Vətən müharibəsindən əvvəl Aprel döyüşləri ilə Ermənistana mesaj ötürdü: "Ölkəmiz bu döyüşlərlə bildirdi ki, qarşı tərəf özünə yığışmasa, aqibəti ağır olacaq. Elə də oldu. Vətən müharibəsi ilə Ermənistanı yerində oturtduq, düşmən kapitulyasiya aktına qol çəkməli oldu. İndi də ölkəmizdə xaos yaratmaq və sabitliyi pozmaq istəyənləri xəbərdar etmək lazımdır ki, artıq daşları yığmaq zamanıdır. Özlərini yığışdırsınlar, sonra pis olacaq".

### "Siz kimin yanındasınız?"

Millət vəkili Ceyhun Məmmədov bildirib ki, məlum olduğu kimi İran tərəfi bir neçə gün bundan əvvəl Azərbaycana nota təqdim etdi. Notada bir çox absurd iddialar əksini tapıb: "Orada Azərbaycan mediası ilə bağlı da bir sıra məqamlar da qeyd olunub. Sözügedən sənəddə İran tərəfi Azərbaycan mediasını İran əleyhinə təbliğat aparmaqda günahlandırır və Azərbaycan tərəfindən bu kimi cəhdlərin qarşısının alınmasını tələb edir. Reallıq isə ondan ibarətdir ki, 30 ildir İran mediası, xüsusilə "Səhər" kanalı Azərbaycan əleyhinə təbliğat aparır. Azərbaycanın dövlət atributları, Prezidenti və dövlət məmurları haqqında davamlı təxribat xarakterli məlumat və videolar yayır. Eyni zamanda İran rejiminin sosial platformalarda yaratdığı teleqram kanalları Azərbaycan əleyhinə gecə-gündüz iftiralar yayır, Azərbaycana qarşı hədyanlar səsləndirir". Deputat onu da qeyd edib ki, həmkarı Fazil Mustafa terror aktına məruz qaldığı gündən, İran mediası ciddi-cəhdlə bu terrorun Azərbaycan tərəfindən törədildiyi barədə xəbərlər yayaraq ictimai rəyi çaşdırmağa çalışır: "Təəssüf ki, hər zaman düşmənin dəyirmana su tökməyə öyrəşmiş, ümummilli məsələlərdə vahid mövqe nümayiş etdirə bilməyən bir qrup "vətənşivən" də bu kampaniyaya qoşuldu. Bu həm də onu göstərdi ki, Azərbaycanın düşmənlərinin hamısı eyni mənbədən qidalanır. İran aydındır. Bəs siz kimin yanındasınız? Həmkarımıza yönəlmiş terror aktı bütövlükdə Azərbaycan dövlətinə və dövlətçiliyinə yönəlmiş sui-qəsd idi. Bu məsələdə hər kəs dövlətin yanında olmalı idi. Siz isə hər zaman olduğu kimi, yenə düşmənin yanında oldunuz. Əgər İran istəyirsə ki, Azərbaycan tərəfi qarşılıq verməsin, o zaman təxribatlara, Azərbaycan əleyhinə təbliğata, hədyanlara son qoymalıdır".

### "Azərbaycan əleyhinə yönəlmiş fəaliyyətlərə son qoyun"

C.Məmmədov İranın Azərbaycanda apardığı zərərli və zəhərli təbliğatın qurbanlarına da müraciət edib: "Azərbaycan əleyhinə yönəlmiş fəaliyyətlərə son qoyun! Yoxsa sizi də eyni aqibət gözləyir. Bir gün mütləq hər biriniz qanun qarşısında cavab verəcəksiniz. Buna heç kimin şübhəsi olmasın. Eyni zamanda guya, "Azərbaycanda şiəliyə və şiələrə qarşı mübarizə aparılır" kimi təbliğata da aldanmayın. Azərbaycanda bu gün heç bir dinə və məzhəbə qarşı hansısa bir məhdudiyyət və qadağa yoxdur. Ancaq Azərbaycan din pərdəsi altında kiminsə ölkəmizin təhlükəsizliyinə təhdid yaratmasına imkan verməyəcək. Bunu hər kəs bilməlidir".

Qeyd edək ki, 28 mart 2023-cü il tarixdə saat 21:51-də Azərbaycan Respublikası Milli Məclisinin deputatı Mustafa Fazil Qəzənfər oğluna yaşadığı evin qarşısında "Kalaşnikov" konstruksiyalı avtomat silahından atəş açılaraq terror aktı törədilib.

Fazil Mustafa bədənin sağ çiyin qurşağını və sağ budun aşağı üçdə birini dəlib keçən güllə yarası alıb.

**İsmayıl Qocayev**



# Mayın 10-na kimi Laçın yolunda post qoyulması gözlənilir

## Azərbaycan Qarabağ ətrafında və Ermənistanla şərti sərhəddə mövqelərini möhkəmləndirir

**"May ayının 10-na kimi Laçın yolunda post qoyulması gözlənilir".**

Bu barədə "Şərq"ə politoloq Məhəmməd Əsədullazadə deyib. Ekspert bildirib ki, Azərbaycan Laçın yolu ətrafında və Ermənistanla şərti sərhəddə mövqelərini möhkəmləndirir: "Həmçinin Qarabağa alternativ yollara nəzarəti bərpa etməklə separatçılar üzərində təzyiqləri gücləndiririk. Demək olar ki, Ermənistanla Qarabağda separatçılar arasında hərbi logistik əlaqələr kəsilib. Azərbaycan Ordusu mühüm strateji yüksəkliklər və Şuşanın iki kəndinə nəzarəti ələ almaqla Ermənistanla şərti sərhəddə yeni ərazilərdə yerləşib. Bütün proseslər Xankəndidə Azərbaycanın de-yure suverenliyinin bərpasına hesablanıb. Bu il ərzində Ermənistandan Qarabağın erməni icmasına qaz və elektrik xətti dayandırıla bilər. Azərbaycan özü Xankəndi və ətrafını qaz və elektrik enerjisi ilə təmin etməsi gözlənilir. Qarabağda silahlı erməni birləşmələrinin ləğvinə gəldikdə isə bu məsələ də öz həllini tapacaq.

Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanması üçün danışıqlarda irəliləyiş əldə edilməsi əsasən Ermənistan rəhbərliyinin Avropa İttifaqının müşahidə missiyasının əli ilə Azərbaycana təzyiq imkanlarını genişləndirmək durmuşdu. Artıq İrəvan Avropa İttifaqının müşahidə missiyasına da ümid etmir. Prezident İlham Əliyev bu il ərzində səssiz hərbi əməliyyat və diplomatiya ilə ciddi uğurlara imza atır".

**İsmayıl**

# Konsulluğumuza silahlı hücum ola bilər

## Tehran rejimi faktiki olaraq zəhərli ideologiyası ilə beyni yuyulmuş etnik azərbaycanlılar vasitəsilə təxribat hazırlayır



**Azərbaycanın Təbrizdəki Baş Konsulluğunun qarşısında təxribat xarakterli addım atılıb. SEPAH-ın dəstəyi ilə yaranan "Hüseyniyyun" terror qruplaşmasının üzvləri "bayraqlarını" konsulluğumuzun qarşısına səriblər.**

Qruplaşma bəyan edib ki, "əgər Azərbaycan konsulluğu MOSSAD-ın nümayəndəliyi olacaqsa, Azərbaycan hüseynçiləri buna imkan verməyəcək". Qeyd edək ki, onsuz da gərgin olan İran-Azərbaycan münasibətləri 27 yanvar 2023-cü ildə Azərbaycanın Tehrandakı səfirliyinə terror hücumundan sonra kritik həddə çatdı. Rəsmi Bakı haqlı olaraq hadisənin baş verməsində İran hakimiyyətini günahlandıraraq Tehrandakı diplomatik missiyasını dayandırmaq qərarına gəldi. Səfirliyin əməkdaşları ailə üzvləri ilə birlikdə yanvarın 29-da Bakıya gətirildi. Bununla belə, Bakı Təbrizdəki Baş Konsulluğun fəaliyyətini dayandırmadı. Azərbaycan sadəcə Tehrandakı diplomatik missiyasını dayandıraraq terakta bağlı İrana etirazını bildirdi. Təbrizdəki Baş Konsulluğun bağlanması isə həm İrandakı vətəndaşlarımızı, həm də 40 milyondan artıq soydaşımızın taleyinin rejimin insafına buraxmaq demək olardı. Buna görə də rəsmi Bakı Tehrandakı səfirliyimizə törədilən terakta baxmayaraq, Təbrizdəki Baş Konsulluğun fəaliyyətini dayandırmadı.

Politoloq Turan Rzayev "Şərq"ə bildirib ki, Azərbaycanın Təbrizdəki Baş Konsulluğunun qarşısında törədilən təxribat xəbərdarlıq mahiyyəti daşıyır. Analitikə görə, mümkündür ki, bu təxribatı Tehrandakı səfirliyimizdə olduğu kimi silahlı hücum izləsin: "Bunu "Hüseyniyyun" qruplaşmasının bəyanatı da təsdiq edir. Qruplaşma bəyan edib ki, "əgər Azərbaycan konsulluğu MOSSAD-ın nümayəndəliyi olacaqsa, Azərbaycan hüseynçiləri buna imkan verməyəcək".

Qruplaşmanın bəyanatındakı "MOSSAD nümayəndəliyi" ittihamı və "Azərbaycan hüseynçiləri" nüansı diqqət çəkir. Tehran rejimi faktiki olaraq zəhərli ideologiyası ilə beyni yuyulmuş etnik azərbaycanlılar vasitəsilə təxribat hazırlayır. Qruplaşmanın bəyanatındakı "Azərbaycan hüseynçiləri" nüansı buna dəlalət edir. "MOSSAD nümayəndəliyi" ittihamı isə konsulluğumuza silahlı hücumun ola biləcəyini göstərir. Nəzərə alaq ki, İran hakimiyyəti beynəlxalq hüququ açıq şəkildə tanımır və artıq bir dəfə səfirliyimizə silahlı hücum təşkil edib. O zaman konsulluğumuza da bənzər hücumun gerçəkləşməsini ehtimal etmək olar".

**İsmayıl**



**"Aprel döyüşləri Azərbaycan xalqına çox böyük ümid, ruh verdi". Bu sözləri "Şərq"ə Qarabağ qazisi, jurnalist Rey Kərimoğlu dörd günlük Aprel döyüşlərindən danışarkən deyib.**

# Böyük Zəfərə təkan verdi

## Aprel döyüşləri xalqın əzmini özünə qaytardı

O vurğulayıb ki, hələ 2016-cı ilə qədər Mübariz İbrahimovun qəhrəmanlığı, xırda döyüşlər xalqda Qarabağın qaytarılmasına böyük inam yaratmışdı:

"Dörd günlük döyüşlərdə isə bu inam pik həddə çatdı. İllərdir, insanlar torpaqlarımızın azad olunması arzusunu, istəyini dilə gətirirdi. Nə vaxtsa Ordumuzun erməni azğınlığına, təcavüzünə son qoyacağını gözləyirdilər. Mənfur düşmənlərimizin kəndləri, dinc əhalimizi atəşə tutduğu məlumdur. O atəşlər nəticəsində insanlar həlak olurdular. 7 il öncə aprelin əvvəlində Azərbaycan Ordusu düşmənin atəş nöqtələrini susdurmaq üçün bir neçə istiqamətdə əks-hücuma keçdi. Atəş nöqtələrini susdurdu, nəzarəti ələ aldı. Xalqımızda çox böyük ruh yüksəkliyi yarandı. Doğrudur, şəhidlərimiz, qazilərimiz oldu. Amma dörd günlük savaş xalqın ruhunu, inamını, əzmini özünə qaytardı".

**R.Kərimoğlu söyləyib ki, 30 ilə yaxın idi, ATƏT-in Minsk qrupu səmərəsiz fəaliyyət göstərirdi:** "İnsanların ümidini qırmaq üçün əlindən gələni edirdi. Aprel döyüşləri ATƏT-in Minsk qrupu, beynəlxalq aləm, o cümlədən, Ermənistanın himayədarlarına ciddi mesaj idi. Xalqımız torpaqların işğalda qalması ilə razılaşmayacaqdı. Ermənilər dörd günlük savaşdan sonra 2020-ci ildə bir daha azğınlaşdı. Bu dəfə Müzəffər Ali Baş Komandanımız, Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu möhtəşəm əks-hücum əməliyyatı həyata keçirdi. 44 gün ərzində Azərbaycan torpaqlarının işğalda olan böyük bir hissəsi azad edildi. 2016-cı il aprel döyüşləri 44 günlük böyük Zəfərin təkanı oldu. Allah şəhidlərimizin ruhunu şad eləsin! Qazilərimizə can sağlığı versin!".

Qeyd edək ki, Aprel döyüşləri 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə başlayıb. Dörd günlük savaş İkinci Qarabağ müharibəsində qazandığımız Zəfərin başlanğıcıdır. Döyüşlər Azərbaycan əsgərinin, Ordumuzun qələbəsi ilə nəticələnib. Dörd günlük savaş nəticəsində Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində yollar düşməndən azad olundu.

**Sücayət Mehti**

# İran şəhərlərində Azərbaycan bayrağı qaldırılıb

## Qadınlar küçələrdə hicabsız rəqs ediblər

**İranda etiraz aksiyaları davam edir. Qərbi və Şərqi Azərbaycan, o cümlədən Təbriz, Ərdəbil, eyni zamanda, Kürdüstan, Mazandaran, Xuzistan və bir sıra əyalətlərdə etiraz aksiyaları davam edib.**



İran şəhərlərində fəallar tərəfindən Azərbaycan bayrağı müxtəlif yerlərdən asılıb.

"Diktatora ölüm!", "Xameneiyə ölüm!", "Uşaq öldürən hökumətə ölüm!", "Qadın, Həyat, Azadlıq!" və bu kimi şüarlar səsləndirilib.

Vətəndaşlar istəklərinin həyata keçirilməsi üçün yaşıl düyün (yaşıl otları düyünləmək) adət-ənənəsinə uyğun olaraq islam respublikasının devirmək arzusu ilə təbiət qoynunda yaşıl düyünlər bağlayıblar. İnsanlar bununla xalqın azadlığına ümidlərini ifadə ediblər.

Bundan başqa, Mazandaran əyalətinin Nouşəhr şəhərində "Qadın, Həyat, Azadlıq!" şüarlarının səsləndirildiyi etiraz aksiyası zamanı İranın xüsusi xidmət orqanlarının agentləri tərəfindən öldürülən Hənanə Kiyanın valideynləri İranın azadlığı və övladının qatillərinin tapılması üçün yaşıl düyün bağlayıblar.

Bundan başqa, qadınlar küçələrdə hicabsız rəqs ediblər.

Şərqi Azərbaycan əyalətinin Miyana şəhərində 7 iş yerinin lisenziyası məcburi hicab qaydalarına riayət edilmədiyi üçün ləğv olunub.

Ərdəbil əyalətindəki Heyran aşırımında etirazçılar Təbiət Günü mərasimi zamanı hökumət əleyhinə şüarlar səsləndiriblər.

Şərqi Azərbaycan əyalətinin mərkəzi Təbriz şəhərində Təbiət Günündə hicabsız gənc qız xalq arasında Azərbaycan rəqsi edib, hicablı qadın isə onu təbrik edib.

Bununla bağlı görüntülər sosial şəbəkələrdə yayılıb. (apa)

Xuzistan əyalətinin Həftqol meydanında Qaşqay türkləri 13-cü Bədr mərasimini rəqs və şənliklə qeyd ediblər. Mərasimə hicablı və başı açıq qadınlar, eyni zamanda, kişilər qatılıblar.

Əhvaz şəhərinin bir qrup təqaüdçüsü və sosial təminat pensiyaçısı Xuzistanın Sosial Müdafiə Baş İdarəsi qarşısında yaşayış şəraitinin pis olmasına və onların tələblərinin nəzərə alınmamasına etiraz ediblər. Aksiyada "Təqaüdçü problemi nə vaxt həll olunacaq?", "Bahalı inflyasiya insanların həyatının bəlasıdır" şüarları səsləndirilib.

Kürdüstan əyalətində Kürdüstan Müəllimlər Birliyi elan edib ki, müəllim, ictimai fəal Süleyman Abdin həbsdən buraxılmasa, üzvləri Saqqız şəhərində Təhsil müəssisəsi qarşısında etiraz aksiyası keçirəcəklər.

İranda şagird və tələbələrin mümmalı zəhərlənməsi də davam edir. 22 Bəhmən adına Qız Məktəbinin şagirdləri zəhərlənib, 5 şagirdin isə vəziyyəti ağır olduğundan İmam Sulduz xəstəxanasına aparılıb.

İranlılar Böyük Britaniyanın paytaxtı Londonun Trafalqar meydanında aksiya keçiriblər. Etirazçılar "Qadın, Həyat, Azadlıq!", "Kişi, Vətən, Abadlıq", "İran hazırdır, Əmr ver, Şahzadə" şüarları səsləndiriblər.

# Tabelik qaydası dəyişir

## Naxçıvan MR Hərbi Prokurorluğu dövlət orqanlarının təsnifatından çıxarılır

**Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğu dövlət orqanlarının təsnifatından çıxarılır.**



Bu, Milli Məclisin iclasında müzakirəyə çıxarılan "Dövlət qulluğu haqqında" və "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsində əksini tapıb.

Naxçıvan Muxtar Respublikasının hərbi prokuroru isə prokurorluqda vəzifələrin təsnifatından çıxarılır.

Qeyd edilib ki, qanun layihəsi Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun tabelik qaydası dəyişdirilməklə yenilən təşkil olunması ilə əlaqədar hazırlanıb.

Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edilib.

# "Makron özünü ermənilərin prezidenti kimi aparır"

## Millət vəkilləri Fransanı Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı hərəkətlərdən çəkinməyə çağırıb

**Milli Məclis Fransa Senatını Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı hərəkətlərdən çəkinməyə çağırıb. Parlamentdə Fransa Senatında martın 16-da Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş, beynəlxalq hüquqa açıq hörmətsizlik ifadə edən konfransla bağlı etiraz Bəyanatı müzakirəyə çıxarılıb.**



Bəyanatda deyilib ki, Fransa Parlamentinin İkinci Qarabağ müharibəsindən sonra Azərbaycana qarış qarayaxma kampaniyası aparan qüvvələrin əlində alətə çevrilməsi təəssüf doğurur: "Ermənistanla sülh sazişinin bağlanması istiqamətində beynəlxalq səylərin gücləndiyi bir vaxtda Fransa Senatının addımı revanşizmə xidmət edən bir addımdır. Milli azlıqların hüquqlarını qorumaqdan yayınan Fransanın Azərbaycandakı erməni azlıqla bağlı canfəşanlıq göstərməsi yolverilməzdir. "Korsika xalqı" ifadəsi Fransa Konstitusiyasına zidd addım kimi qadağan edilib. Ancaq Fransa Azərbaycanda yaşayan bir etnik azlığı "Artsax xalqı" kimi təqdim etməyə çalışır. Azərbaycanın daxili işlərinə davamlı müdaxilə edən Fransa Senatı və Milli Assambleyanın islam separatizminə qarşı qəbul etdiyi qanunlardan bu ölkədə azadlıqların məhdudlaşdırılması üçün kütləvi istifadə edilir. Ona görə də Fransa Senatında konfrans siyasi riyakarlığın bariz nümunəsidir". Vurğulanıb ki, Fransanın bölgədə itirdiyi mövqeləri kobudluqla bərpa etmək cəhdləri uğursuzluğa məhkumdur: "Milli Məclis Azərbaycana ədalətsiz münasibətini nümayiş etdirmiş Fransanın mövqeyini dəyişmədən Azərbaycanla Ermənistan arasında normallaşma prosesinə cəlb edilməməsi ilə bağlı hökumətə müraciət edib". Bəyanat müzakirəyə çıxarılaraq qəbul edilib.

### "Fransa Azərbaycanla bağlı qərəzli siyasətini davam etdirir"

Milli Məclisin Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Soltan Məmmədov deyib ki, Fransa 44 günlük müharibə zamanı olduğu kimi, müharibədən sonra da Azərbaycanla bağlı qərəzli siyasətini davam etdirir.

O qeyd edib ki, Cənubi Qafqazda yaranmış yeni reallıqlar, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində irəli sürülən təşəbbüslər fonunda Senatda bu cür tədbirlərin təşkili regionda sülhü, sabitliyi pozmağa yönəlib: "Azərbaycan Parlamentində dəfələrlə Fransanın ikili standartlar siyasətinə son qoyması ilə bağlı çağırışlar edilib. Lakin görünür, fransalı həmkarlarımz bu çağırışların siyasi əhəmiyyətini düzgün qiymətləndirə bilmirlər. Fransa Avropa məkanında milli azlıqlara məxsus şəxslərin hüquqlarının mühafizəsi sahəsində ən fundamental sənədlərdən biri hesab olunan "Milli azlıqlar haqqında" Çərçivə Konvensiyasını indiyə qədər imzalamayıb. Bununla yanaşı, Avropa Şurasının Regional və ya Azlıq dilləri üzrə Avropa Xartiyasını ratifikasiya etməyib. Bu, əslində Fransanın milli azlıqların hüquqlarına yanaşmasını əks etdirən faktlardır. Belə bir ölkənin başqalarına etnik azlıqların hüquqları ilə bağlı irad bildirməyə mənəvi haqqı yoxdur. Fransa Milli Assambleyasında Azərbaycanla dostluq qrupu fəaliyyətə başlayıb. Milli Məclisin Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupu ilə ikitərəfli əməkdaşlığı inkişaf etdirmək məqsədilə müəyyən ideyalar, təkliflər irəli sürülür. İqtisadi, mədəni, humanitar sahələrdə birgə layihələr həyata keçirmək niyyəti var. Fransa Senatında atılan bu cür addımlar əlaqələrin gələcəyinə dair ümidləri xeyli dərəcədə zəiflədir. Bizim birgə layihələrimizin məramı həm də regionda sülhü təşviq etməkdir. Çünki indi nəinki Cənubi Qafqazın, ümumilikdə beynəlxalq münasibətlər sisteminin bu cür təşəbbüslərə daha çox ehtiyacı var". O qeyd edib ki, dünyada mürəkkəb proseslərin cərəyan etdiyi, müxtəlif bölgələrdə minlərlə insan itkisinə səbəb olan ciddi toqquşmaların baş verdiyi indiki həssas məqamda Fransa sülh və əməkdaşlıq üçün çox böyük imkanların yarandığı Cənubi Qafqazda vəziyyəti dramatikləşdirməyə çalışır: "Bu siyasət nə Fransanın, nə uzunmüddətli münaqişələrdən əziyyət çəkmiş region xalqlarının maraqlarına cavab verir. Əksinə, bölgəmizdə qeyri-sabitliyin artması nəticə etibarilə qlobal sülhə və təhlükəsizliyə də mənfi təsir göstərir. Azərbaycan öz milli maraqlarının sərhədlərini də dəqiq bilir və heç bir dövlətin bu sərhədləri keçməsinə imkan vermək niyyətində deyil".

### "Fransanın timsalında ciddi pozuculuq fəaliyyətinin şahidləriyik"

Deputat Şahin İsmayılov bildirib ki, Azərbaycan 30 ilə yaxın davam edən Qarabağ münaqişəsini həll edərək, beynəlxalq hüququ bərpa etdi. Hazırda da ölkəmiz Ermənistanla- Azərbaycan arasında bağlanılacaq sülh müqaviləsi üzərində işləyir və bütövlükdə regionda sülhün əsas təminatçısı kimi çıxış edir: "Qarabağ problemi həll olunandan sonra bir sıra dövlət və təşkilatlar postmünaqişə dövrünə bu və ya digər formada dəstək olmaq və bağlanacaq yekun sülh müqaviləsinə töhfə verməyə çalışırlar. Təbii olaraq, Azərbaycan tərəfi bütün müsbət təşəbbüslərə dəstək verir. Lakin əfsuslar olsun ki, biz Fransanın timsalında ciddi pozuculuq fəaliyyətinin şahidləriyik. Tarixin zibil qutusuna atılmış ATƏT-in Minsk qrupunun həmsədr dövləti olan Fransa münaqişənin həlli istiqamətində ötən 30 ilə yaxın dövrdə heç bir ciddi təşəbbüslə çıxış etməyib, əksinə, status-kvonun qorunması üçün əlindən gələni edib. Sanki Fransa dövlətinin genetik kodlarını təşkil edən islamafobiya, irqçilik, müstəmləkəçilik kimi anlayışlara Azərbaycanfobiya da əlavə edilib. Fransa dövləti başda Fransa tarixinin ən uğursuz prezidenti olan Makron olmaqla bütövlükdə ölkəmizə qarşı hücuma keçib. Mütəmadi olaraq Azərbaycana qarşı əsassız bəyanatlar səsləndirilir, sənədlər qəbul olunur və bununla da sanki ölkəmizə nə isə diktə etməyə çalışırlar. Amma başda Makron olmaqla bütün fransız siyasətçilər çox yaxşı bilirlər ki, nə Azərbaycan dövlətinə, nə də Azərbaycan Prezidentinə nə isə diktə etmək mümkün deyil. Fransanın mövcud pozuculuq fəaliyyəti bütövlükdə sülh prosesinə ciddi təhlükə yaradır".

### "Fransa rəsmi Bakı ilə Qarabağ ermənilərinin yaxınlaşmasına mane olmağa çalışır"

Millət vəkili Musa Qasımlı bildirib ki, Fransa rəsmi Bakı ilə Qarabağ ermənilərinin yaxınlaşmasına mane olmağa çalışır. Onun sözlərinə görə, Fransanın Azərbaycanın daxili işlərinə qarışmaq cəhdləri puça çıxacaq: "Azərbaycan rəhbərliyi Fransa rəhbərliyini qarşısına qoyaraq ədalətdən ustad dərsi keçə bilər. Fransada Azərbaycanın daxili işlərinə yönəlik tədbirlər keçirmək mənasızdır".

Deputat Ceyhun Məmmədov deyib ki, Fransa Prezidenti E.Makron özünü ermənilərin prezidenti kimi aparır: "Bəzi Fransa siyasətçiləri açıq qeyd edirlər ki, Emmanuel Makron artıq özünü fransızların deyil, ermənilərin prezidenti kimi aparır". O bildirib ki, əgər Fransanın ikinci erməni dövləti qurmaq niyyəti varsa, bunu Marsel şəhərində edə bilər: "Bu gün ermənilər Marsel şəhərinə də iddia edirlər. Şərait yaratsınlar, orada ermənilər ikinci erməni dövləti qursunlar".

Qeyd edək ki, Fransa Senatında martın 16-da növbəti dəfə Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlik, beynəlxalq hüquqa açıq hörmətsizlik ifadə edən konfrans keçirilib.

**İsmayıl**



# "Sanki əlləri bala batacaq"

## Aqil Ələsgər: "Azərbaycanda da müəyyən kəsim Ərdoğanın hakimiyyətdən getməsi üçün əlindən gələni əsirgəmir"

**"Azərbaycan xalqı Türkiyənin sevincini öz sevinci, kədərini kədəri bilir. Türkiyənin də böyük kəsiminin baxışları bizimlə eynidir. O baxımdan Türkiyədə olan hadisələri yaxından izləməyimiz, qardaş ölkədə olan məsələlərə daha fərqli reaksiya verməyimiz təbii qarşılanmalıdır".**

Bunu "Şərq"ə açıqlamasında "YeniÇağ" Media Qrupun rəhbəri Aqil Ələsgər deyib. Türkiyədə 14 mayda keçiriləcək prezident və parlament seçkisi öncəsi yaşanan proseslərdən və Azərbaycandakı fərqli yanaşmalardan danışan baş redaktor bildirib ki, Türkiyədə qarşıdan gələn prezident və parlament seçkisində kimin qələbə qazanması bizim üçün ona görə önəmlidir ki, Türkiyə-Azərbaycan qardaşlıqla yanaşı, həm də strateji ortaq, ən yaxın müttəfiqdirlər: "Nəzərə alaq ki, bölgədə həlli zəruri olan çox ciddi məsələlər var. Azərbaycanda bir çox beyin mərkəzləri düşünür ki, mövcud problemlərin həlli üçün mütləq şəkildə Rəcəb Tayyib Ərdoğanın ən azından bir dönəm də hakimiyyətdə qalması vacibdir. Regionda baş verən prosesləri, siyasi oyunları diqqətə aldıqda təəssüflə qeyd edirik ki, hazırda Türkiyə ictimaiyyətində Ərdoğana alternativ görünmür. Ola bilər ki, lokal olaraq Türkiyə cəmiyyəti üçün başqa namizədlər var, amma qlobal oyunların aparıcı fiquru olan Ərdoğanın yerini ala biləcək namizəd yoxdur. Yəni bununla bağlı ciddi tərəddüdlər mövcuddur. Eyni zamanda "Millət İttifaqı"nın, konkret CHP-nin HDP ilə əlaqələri müxalifətlə bağlı müəyyən suallar yaradır. HDP terrorçu təşkilat PKK-nın siyasi qanadı olmaqla bərabər həm də qondarma erməni "soyrıqımı" və digər bu tipli məsələlərdə tamamilə Azərbaycana və Türkiyəyə zidd siyasət yürüdən partiyadır".

**A.Ələsgərin fikrincə, Azərbaycan və Türkiyə dövlətçiliyini düşünən şəxslərin HDP ilə ittifaqa "hə" deməsi, "Millət İttifaqı"nı dəstəkləməsi mümkün deyil:** "Ancaq Türkiyədə olduğu kimi Azərbaycanda da bəlli bir kəsim kimliyindən asılı olmayaraq Ərdoğanın qarşısındakı namizədin qalib olmasını arzulayır. Görünür, Türkiyədə bəzi dairələrdə mövcud olan anti-Ərdoğançılıq Azərbaycandakılara da sirayət edir. Müəyyən kəsim Ərdoğanın getməsi üçün əlindən gələni əsirgəmir. Sanki Ərdoğan hakimiyyətdən getsə, əlləri bala batacaq. Seçki yaxınlaşdıqca, proses qızışdıqca, Azərbaycan cəmiyyətində də yersiz bölünmələr müşahidə olunacaq. Ümumilikdə Türkiyənin qələbə çalmasını istəyirik, Türkiyəmiz üçün ən xeyirlisini istəyirik".

***"Halbuki qlobal oyunların aparıcı fiquru olan Ərdoğanın yerini ala biləcək namizəd yoxdur"***

**İsmayıl Qocayev**

# Bir ayda ölkədə avtomatla 4 cinayət törədilib

## Sərdar Cəlaloğlu: "Sual yaranır ki, bu tip silahların vətəndaşlarda nə işi var?"



**"Millət vəkili Fazil Mustafaya qarşı silahlı hücuma Milli Məclis hüquqi-siyasi qiymət verir, sifarişçiləri və təşkilatçıları ifşa edilən qəsdin məhz terror aktı olduğunu təsdiqləyir. Martın 2-də Hacı Şahin Həsənlinin müəmmalı ölümü, martın 4-də hipermarketə hücum, martın 9-da Bakıda silahlı atışma və martın 28-də millət vəkilinə sui-qəsd vahid bir zəncirdə birləşir. Terrorun silahı nə olursa-olsun, onun əsas niyyəti xalqın üzərində dövlətdən üstün hakimiyyət qazanmaq, qorxu, xof və təşviş ilə ictimai təhlükəsizliyə zərbə vurmaq və bu yolla dövlət siyasətlərinə təsir göstərməkdir".**

Bunu Milli Məclisin iclasında İnsan hüquqları komitəsinin sədri Zahid Oruc deyib.

O bildirib ki, Fazil Mustafaya qarşı terror aktı Azərbaycan dövlətinin sülh quruculuğu naminə həyata keçirdiyi siyasətə inamı sarsıtmaq məqsədi daşıyır.

Hüquq-mühafizə orqanlarının hadisələrin arxasında duran qüvvələri müəyyən etmək üçün yetərli imkan olduğunu deyən Azərbaycan Demokrat Partiyasının (ADR) sədri Sərdar Cəlaloğlu "Şərq"ə bildirib ki, hadisələrin xaricdən istiqamətlənən sifarişlərlə baş verdiyinin fərqi yoxdur: "Əsas məsələ Azərbaycanda vətəndaşların təhlükəsizliyinin yaxşı təmin edilməməsidir. Ölkədə bir ay ərzində avtomat silahdan istifadə edilərək 4 cinayət hadisəsi törədilib. Avtomat isə müharibədə istifadə edilən silahdır. Sual yaranır ki, bu tip silahların vətəndaşlarda nə işi var?

Digər məsələ isə cinayətə cəlb edilən insanların niyə bu əməli törətməsidir? Çünki bunun altında sosial-iqtisadi səbəblər var. Həmçinin gənclərin belə cinayətlərə cəlb edilməsi, onlar arasında maarifləndirmə işinin zəif aparıldığının göstəricisidir. Yəni biz hadisəni İran, Rusiya və ya Ermənistan törədib deməklə iş bitmir.

Əsas məsələ Azərbaycanda niyə bu şəraitin olmasıdır? Ümumiyyətlə, biz sual verməliyik ki, niyə Azərbaycanda insanlar belə cinayətlərə qoşulur? Niyə hüquq-mühafizə orqanları vaxtında cinayətkar dəstələri zərərsizləşdirib, silahları yığmır? Ölkədə elə bir vəziyyət yaranıb ki, kim-kimi istəyir öldürür, əmlakını alır, hücum edir.

Yəni qanunsuzluq var. Məsələnin mahiyyəti hadisələrin arxasında hansı qüvvələrin dayandığı yox, niyə bir ay ərzində ölkədə 4 avtomatlı cinayət törədilməsidir. Təşkilatçıları araşdırmaq isə hüquq-mühafizə orqanlarının işidir".

**Nihat Müzəffər**

# Xaricdə təhsil almış daha 30 nəfərin diplomu tanınmayıb

**Mart ayı üzrə xaricdə təhsil almış və diplomunun tanınması ilə bağlı 516 müraciətçinin 486-sı barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilib, 30 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb.**

Bu barədə Təhsildə Keyfiyyət Təminatı Agentliyindən xəbər verilib.

Tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində kifayət qədər olmaması səbəbi ilə 27, təhsil forması səbəbi ilə 2, akkreditasiyasız ali təhsil müəssisəsi üzrə 1 nəfərin müraciəti mənfi qərarla yekunlaşıb.

Ölkələr üzrə müraciətlərin sayına nəzər saldıqda Ukraynadan 219, Rusiya Federasiyasından 110, Türkiyə Respublikasından 95, Belarus Respublikasından 25, Gürcüstandan 19, digər ölkələrdən isə 48 müraciətin olduğu müşahidə olunur.

Ən çox müraciət olunan ixtisaslara gəlincə, iqtisadiyyat üzrə 74, maliyyə üzrə 67, menecment üzrə 39, hüquqşünaslıq üzrə 35, bizensin idarə edilməsi üzrə 31 müraciətçi qeydə alınıb.

Bildiririk ki, sənədlərə ortalama baxılma müddəti 14 iş günü təşkil edib.

Əlavə olaraq bildiririk ki, vətəndaşlar xarici ali təhsil ixtisaslarının tanınması üçün www.tanınma.az keçidinə daxil ola bilərlər.



# Saxta diplomu olanlar da sertifikatlaşdırılma prosesinə cəlb olunacaqlar

## İmtahanda uğurlu nəticə əldə etmiş müəllimlər öz fəalliyyətlərinə davam etmək haqqı qazanacaqlar

**Diplomu dövlət nümunəli olmayan təhsilverənlər də sertifikatlaşdırılma prosesinə cəlb olunacaqlar.**

Bu barədə  Elm və Təhsil Nazirliyindən bildirilib.

"Müəllimlər üçün bu barədə məhdudiyyət yoxdur. Diplomu dövlət nümunəli olmayan müəllimlər də (saxta diplom) təhsilverənlərin sertifikatlaşdırılması prosesinə cəlb olunacaqlar", - deyə qeyd edilib.

Xatırladaq ki, bir müddət öncə Milli Məclisin Elm və təhsil komitəsində "Dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırılması" mövzusunda keçirilən ictimai dinləmədə elm və təhsil naziri Emin Əmrullayev 15-20 il əvvəl külli miqdarda saxta diplom verən ali məktəblərimizin olduğunu qeyd edib.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən təhsil eksperti Elçin Əfəndi bildirib ki, saxta diplomlu müəllimlər Təhsildə Keyfiyyət Təminatı Agentliyi yaranmazdan əvvəlki dövrdə, müəllimlərin işə qəbulu prosesinə qədər hər zaman olub. Onlar diplomlarını müəyyən üsullarla alıb. Onların bir çoxu hazırda təhsil ocaqlarında müəllim kimi fəaliyyət göstərirlər:** "Mənim fikrimcə, bu müəllimlərin işlərinə birbaşa olaraq xitam verilməyi ən düzgün addım olardı. Ancaq təəssüflər olsun ki, biz onları birbaşa uzaqlaşdıra bilmirik. Bu səbəbdən düşünürəm ki, onların məhz bu sertifikatlaşdırma proseslərinə cəlb edilməsi bu problemi müəyyən qədər də olsa aradan qaldıra biləcək. Sertifikatlaşdırma imtahanında uğurlu nəticə etmiş müəllimlər öz fəaliyyətlərinə davam etmək haqqı qazanacaqlar. İmtahanlarda uğursuz nəticə əldə etmiş şəxslərin isə əmək müqavilələrinə xitam veriləcək".   Ekspert vurğulayıb ki, müəllimlərin işə qəbulu ilə bağlı müsabiqəyə 40, 50 min müraciət olunur, ancaq cəmi səkkiz-doqquz min vakansiya mövcud olur: "Saxta diplomlu şəxsləri sıradan çıxararaq vakant yerlərin sayını on iki, on üç minə və hətta ondan da yüksək bir rəqəmə çıxarmaq olar. Yekunda yeni kadrların işə qəbulundakı sayın artmasının şahidi olarıq.

Doğrudur, hazırda bəzi müəllimlərin diplomlarının saxta olduğunu sübuta yetirmək mümkünsüzdür. Çünki saxta diplomların verildiyi bir dövrdə diplomların saxtalığını yoxlayan hər hansı bir qrum yox idi. İndi isə artıq belə bir qrum mövcuddur. Əgər diplomun saxta olduğu bu qurum tərəfindən təsdiqlənərsə, o zaman həmin şəxslər Müəllimlərin İşə Qəbulu imtahanında iştirakdan məhrum edilir. Ümid edirəm ki, bu sertifikasiya əvvəlki dövrlərdə saxta diplom əldə etmiş şəxslərin sıradan çıxarılması ilə nəticələnəcək".

**Nihad Kərimli**

# Ruslar və Aİ-nin missiyası sülh üçün gəlməyib

## Onların əsas məqsədi regionda öz təsir gücünü artırmaqdır



**Avropa İttifaqının Ermənistandakı missiyasından Azərbaycan və Ermənistan arasında normallaşma prosesinə xələl gətirmək üçün bəhanə kimi sui-istifadə edilməsi yolverilməzdir.**

Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov aprelin 3-də Bakıda Avropa Xarici Fəaliyyət Xidmətinin Şərq Tərəfdaşlığı məsələləri üzrə xüsusi nümayəndəsi Dirk Şubellə görüşdə deyib.

Postmünaqişə dövründə regionda mövcud vəziyyət, Azərbaycanın bərpa-quruculuq fəaliyyəti, bölgədə kommunikasiyaların açılması istiqamətində görülən işlər, o cümlədən Ermənistanla münasibətlərin normallaşması və sülh gündəliyinin irəli aparılması istiqamətində göstərilən səylər barədə qarşı tərəfi ətraflı məlumatlandıran nazir, Ermənistanın öhdəliklərindən boyun qaçıraraq davamlı hərbi-siyasi təxribatlar törətməsinin, mina təhdidini davam etdirməsinin sülh quruculuğu prosesinə xələl gətirdiyini diqqətə çatdırıb.

C.Bayramov son dövrlərdə Ermənistan tərəfindən törədilən təxribatların intensivləşməsinin Aİ-nin Ermənistanda missiyasının mövcudluğu dövrünə təsadüf etməsinin narahatlıq doğurduğunu bildirib.

**Məsələyə münasibət bildirən siyasi şərhçi Kənan Novruzov ”Şərq”ə söyləyib ki, nə rus sülhməramlı kontingenti, nə də Aİ-nin missiyası regiona sabitlik yaratmaq üçün gəlib:** ”Onların əsas məqsədi regionda öz təsir gücünü artırmaqdır. Ümumiyyətlə, Qərb və Rusiya sülhə maraqlı olsaydılar, buna 30 il ərzində nail olardılar. Bu mənada biz həmin qurumların sülhməramlı missiyası adı altında niyə regiona gəldiklərini aydınlaşdırmalıyıq. Ermənistan tərəfi isə bunlardan istifadə edərək öz təxribatlarını davam etdirir. İndiki vaxtda demək olar ki, hər gün rus sülhməramlılarının nəzarət etdiyi ərazilərdə erməni terrorçuları atəşkəsi pozur və təxribat törədir. Bunun səbəbi isə onların kontingentə güvənmələridir”.

**Analitik qeyd edib ki, Ceyhun Bayramovun da qeyd etdiyi kimi, Avropa İttifaqının mülki missiyası bölgəyə gəldikdən sonra Ermənistan tərəfinin təxribatları daha da intensivləşib:** ”Çünki ermənilər arxayındırlar və hesab edirlər ki, Azərbaycan adekvat cavab verərsə, missiyanın müdaxiləsi olacaq. Digər tərəfdən, bu tipli missiyalara əsasən gərginlik olduğu zaman ehtiyac olur. Deməli, Aİ də Rusiya qədər gərginliyə maraqlıdır. Heç kəs Aİ və Rusiyanın Ermənistanı təxribata təhrik etmədiyini iddia edə bilməz. Məsələnin mahiyyəti bundan ibarətdir. Ümumiyyətlə, nə Aİ-nin missiyasının, nə də rus sülhməramlılarının bizim məqsədlərimizə nail olmağımıza və qalib tərəf kimi sülh müqaviləsinin bizim şərtlərimiz əsasında imzalanmasına mane ola bilməyəcəklərini düşünürəm”.

**Nihat Müzəffər**

# Böyük şərəf və məsuliyyətdir

## Heydər Əliyevin 100 illiyi ilə bağlı yubiley medalı xüsusi xidmətlərə görə veriləcək



**Ulu Öndər Heydər Əliyevin 100 illiyi ilə bağlı yubiley medalı təsis ediləcək. Bu barədə qanun layihəsi Milli Məclisin dünən keçirilən iclasında müzakirəyə çıxarılıb. Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edilib.**

Millət vəkili Sabir Rüstəmxanlı deyib ki, bir konfransda Çingiz Aytmatova nə üçün Nobel mükafatı verilməməsi barədə danışıb. Konfransdan sonra Çingiz Aytmatov onu otağına çağırıb: ”Bir dəfə Türkiyədə Çingiz Aytmatova həsr edilmiş məclisdə niyə Aytmatovun Nobel mükafatı almaması müzakirə olundu. Mən dedim ki, bu mükafatın fondu əslində qədim Bakı pullarının əsasında qurulub. Çingiz məni çağırdı, dedi ki, Nobel mükafatı məsələsində onu aldatdılar. O, mənə Nobel mükafatına alternativ bir mükafat yaratmağın mümkünlüyü barədə ideya verdi. Aytmatov bildirdi ki, dünya tarixində incəsənətə, ədəbiyyata, sənətkara qiymət baxımından Heydər Əliyev ilə müqayisə olunacaq adam azdır, bəlkə də yoxdur. O qeyd etdi ki, Azərbaycan Nobel mükafatına alternativ mükafat təsis etsin və mükafatın adını ”Heydər Əliyev beynəlxalq mükafatı” qoysun. Bundan sonra düşündüm ki, mükafatın məbləğini Nobel mükafatından artıq qoysaq, Nobel üçün sıraya düzülənlər Bakıda sıraya düzüləcək və ədəbiyyata, sənətə qiymət vermək imtiyazı Azərbaycanın əlinə keçəcək. Bu fikri indi burada səsləndirməyi özümə borc bilirəm. Hesab edirəm ki, bu fikirlər Prezident İlham Əliyevə çatar və ola bilsin, bu mükafatın yaradılması barəsində düşünər”.

**Millət vəkili Azay Quliyev deyib ki, ”Heydər Əliyev” ordeninin statusu fərqli olduğundan, bu ali mükafat xüsusi hallarda və ölkəmizin qarşısında müstəsna xidmətləri olan şəxslərə və bir qayda olaraq xarici ölkə başçılarına verilir.** ”Heydər Əliyev” ordeni indiyə kimi 16 nəfəri xarici vətəndaş olmaqla cəmi 26 nəfərə verilib. Deputatın sözlərinə görə, bu gün dövlətinə, xalqına və Heydər Əliyev ideyalarına sədaqətlə xidmət edən yüzlərlə, minlərlə soydaşımız var ki, onların fəaliyyətini stimullaşdırmaq və qiymətləndirmək üçün Ulu Öndərin adı ilə bağlı başqa bir təltifin təsis olunmasına çox böyük ehtiyac vardı: ”Xüsusilə qeyd olunmalıdır ki, yubiley medalı ilə təltif ediləcək şəxslərin əhatə dairəsi çox həssaslıqla, dövlətçilik məfkurəsindən və prinsiplərindən irəli gələrək müəyyənləşdirilir. Əsasnaməyə əsasən, yubiley medalı Heydər Əliyev irsinin tədqiqində və təbliğində xüsusi xidmətlərinə, dövlət quruculuğunda, azərbaycançılıq ideyasının həyata keçirilməsində, dünya azərbaycanlılarının həmrəyliyinin möhkəmləndirilməsində, beynəlxalq əməkdaşlığın inkişafında, dövlət müstəqilliyinin qorunub saxlanılmasına və inkişafına və s. məqamlara görə ölkə vətəndaşlarına, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə, beynəlxalq təşkilatlara veriləcək. Təltif olunan şəxslərinin əhatə dairəsindən də göründüyü kimi, yubiley medalının təsis olunması dövlətçilik ənənələrimizin və milli maraqlarımızın qorunmasına, ölkəmizin tərəqqisinə və güclənməsinə xidmət edəcək. İnanıram ki, bu medalla təltif olunacaq hər bir şəxs onu böyük şərəf və məsuliyyət hissi ilə daşıyacaq və hər zaman Heydər Əliyev yoluna və siyasi kursuna sadiq olacaq”.

**İsmayıl**

# Mina terroru ifşa olunmalıdır

## Hüquqi müstəvidə Ermənistanın cəzalandırılmasına və böyük miqdarda təzminat ödəməsinə nail olmalıyıq



**4 aprel dünyada Beynəlxalq Mina Təhlükəsizliyi Günü kimi qeyd olunur. BMT Baş Assambleyasının 2005-ci il 8 dekabr tarixli qətnaməsinə əsasən, məqsəd minalarla çirklənməyə məruz qalmış ərazilərə diqqət çəkməkdir.**

Minalanmış ərazilər humanitar fəlakət zonası sayılır. Dünya təcrübəsindən bəlli olduğu kimi, müharibələr zamanı minalarla çirkləndirilmiş ərazilər müvafiq beynəlxalq təşkilatların, donor ölkələrin köməyi ilə təmizlənir. Azərbaycan da dünya üzrə minalarla ən çox çirklənmiş, mina təhlükəsindən əziyyət çəkən ölkələr sırasında yer alır. Mənfur düşmən ərazilərimizi işğal altında saxladığı 30 il ərzində şəhər və kəndlərimizi dağıtmaqla yanaşı, həm də ən ağlagəlməyən yerləri belə minalayıb. Ərazilərimizin minalanması erməni vandalizminin bariz nümunəsi olsa da, işğal faktı ilə üzləşən Azərbaycanda minaların təmizlənməsində beynəlxalq birliyin dəstəyi hiss edilmir. İşğaldan azad olunmuş ərazilərdə mənfur düşmən tərəfindən basdırılan minalar can almaqda davam edir.

Davamlı olaraq sözügedən ərazilərdə xidmət edən hərbçilərimiz və digər mülki şəxslərin minaya düşməsi ilə bağlı üzücü xəbərlər alırıq. Halbuki Azərbaycan 2030-cu ilədək olan dövrü əhatə edən yeni strateji mərhələdə Vətən müharibəsində işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışı təmin etməyi özünün 5 əsas prioritetindən biri kimi müəyyənləşdirib. Lakin bu strateji hədəfə çatmaq üçün ilk növbədə ərazilər minalardan təmizlənməlidir. Bunu Prezident İlham Əliyev hökumətin qarşısına əsas vəzifələrdən biri kimi qoyub.

Qeyd edək ki, tviter hesabında 4 aprelin əhəmiyyətinə toxunan edən BMT Baş katibi Antonio Quterreş ”Biz mina təhlükəsini aradan qaldırmaq üçün hərəkətə keçməliyik”-başlıqlı paylaşım edib. Onun sözlərinə görə, insanların təhlükəsiz şəraitdə geri qayıtmalarına və həyatlarını yenidən qurmalarına şərait yaradılmalıdır: ”Döyüşlər dayandıqdan sonra belə münaqişələr çox vaxt qorxulu miras qoyur: minalar və partlayıcı sursatlar”.

Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) tviter səhifəsində isə minatəmizləmə prosesinin təxirəsalınmaz olduğu vurğulanıb. XİN ərazilərə mina yerləşdirənlərin və onların zərərsizləşdirilməsində əməkdaşlıqdan imtina edənlərin, o cümlədən Ermənistanın məsuliyyətə cəlb edilməsinin zəruriliyini qeyd edib: ”Biz minaların səbəb olduğu insan tələfatına son qoymalıyıq”.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyində də Beynəlxalq Mina Xəbərdarlığı və Mina Fəaliyyətinə Yardım Günü ilə bağlı ”Ermənistanın törətdiyi mina terroru” adlı tədbir keçirilib. Tədbir iştirakçıları beynəlxalq təşkilatları Ermənistanın mina terrorunu pisləməyə çağırıblar. Agentliyin Müşahidə Şurasının üzvü Azər Allahverənov Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan torpaqlarının işğaldan azad olunduğunu xatırladıb: ”Müəyyən edilib ki, 30 il işğal dövründə Ermənistan işğal altında saxladığı ərazilərdə 1 milyondan çox mina basdırıb. Bu gün Azərbaycan işğaldan azad etdiyi ərazilərdə geniş quruculuq işlərini həyata keçirir. Lakin bu işləri tam şəkildə həyata keçirmək üçün ən böyük maneə bu ərazilərin erməni hərbi birləşmələri tərəfindən mina və partlamamış hərbi sursatlarla çirklədilməsidir”. A.Allahverənovun sözlərinə görə, əsasən Ermənistan istehsalı olan bu minaların partlaması nəticəsində təkcə Vətən müharibəsindən sonra keçən iki il ərzində 288 azərbaycanlı minaya düşüb, onlardan 50-si həyatını itirib: ”Ermənistanın Azərbaycana qarşı törətdiyi və əsasən dinc sakinləri hədəfə alan mina terroru bütövlükdə bəşəriyyət əleyhinə yönəlmiş hərbi cinayət, sülhə və sabitliyə ciddi təhlükədir. Biz, qeyri-hökumət təşkilatları nümayəndələri olaraq Ermənistanın mina terrorunu pisləyir, beynəlxalq təşkilatların bu məsələyə adekvat münasibət bildirməyini tələb edirik”. QHT nümayəndəsi tədbirin nəticəsi kimi Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatları adından mina terroru ilə bağlı bəyanatın ünvanlanmasının əhəmiyyətini qeyd edib.

**Mina terrorunun ölkəmiz üçün ən aktual və təhlükəli məsələ olaraq qaldığını xatırladan Demokratiya və İnsan Hüquqları İnstitutunun rəhbəri Əhməd Şahidov isə ”Şərq”ə açıqlamasında deyib ki, müharibə bitsə də, Ermənistan hərbi cinayətini hələ də davam etdirir:** ”2020-ci ilin noyabrından, yəni savaş bitəndən bu yana üç yüzə yaxın insan mina partlayışından zərər görüb, 50-yə yaxın insan həlak olub. Ərazilərimizin böyük hissəsi işğal dövründə minalarla doldurulsa da, üçtərəfli saziş imzalanandan sonra da erməni tərəfi torpaqlarımızda yenidən minalar basdırıb. 2021-ci il Ermənistanda istehsal olunan minaların aşkarlanması bunu isbat edir. Ermənilərin müxtəlif diversiya qrupları işğaldan azad edilmiş ərazilərimizə sızaraq minalar basdırıblar. Düşmənin əksər cəhdinin qarşısı alınsa da, müəyyən vaxtlarda öz təxribatlarını reallaşdırmaq imkanı əldə ediblər. Mina terroru ermənilərin ən çox ifşa olunması lazım olan məsələdir. Bunu bütün imkanlarımızı səfərbər edərək beynəlxalq təşkilatların, dünya ictimaiyyətinin diqqətinə çatdırmalıyıq. Hüquqi müstəvidə Ermənistanın cəzalandırılmasına, ifşa olunmasına və böyük miqdarda təzminat ödəməsinə nail olmalıyıq. Çünki bu məsələ uzun illər Azərbaycan xalqı üçün probleme çevriləcək. Ərazilərin minalardan tam təmizlənməsi üçün uzun zaman və milyardlarla manat vəsait lazımdır. Dövlətimiz bütün imkanlarını səfərbər edib. Biz də vətəndaş cəmiyyəti olaraq əlimizdən gələni etməliyik. Hesab edirəm ki, Azərbaycanın təkbaşına bu işin öhdəsindən gəlməsi çətin olduğu üçün mütləq beynəlxalq aləm bizə dəstək olmalıdır. Onlar barədə beynəlxalq təşkilatlar öz hesabatlarında məlumat verməli və Ermənistanın müharibə cinayətləri cəzasız qalmamalıdır. Amma təəssüflə qeyd etməliyəm ki, beynəlxalq təşkilatlar bu məsələyə yanaşmada ikili standartlar tətbiq edirlər”.

**Şəymən Bayramova**

# VHP ilə birləşmək istəyən partiyalar var

## Amma bu məsələyə həmin təşkilatların yekun və konkret qərarından sonra baxılacaq



**”Siyasi partiyalar haqqında” qanunun tələblərinə cavab verməyən 7 partiya fəaliyyətini dayandırıb. Digər bir neçə siyasi partiyanın isə birləşəcəyi müzakirə olunmaqadır. Sosial Ədalət Partiyası və Qorqud Partiyalarının da yaxın günlərdə Vətəndaş Həmrəyliyi Partiyasına birləşəcəyi ilə bağlı məlumatlar var.**

Yayılan xəbərlərlə bağlı ”Şərq”ə danışan Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli deyib ki, ”Siyasi partiyalar haqqında” qanunda əksini tapmış bir sıra tələblərə görə, bəzi partiyalar öz fəaliyyətini dayandırmaq qərarı alıb. Partiya təmsilçisi bildirib ki, söhbət 5 min üzv məsələsindən gedir: ”5 min üzv tələbini yerinə yetirə bilməyənlər çıxış yolunu digər partiyalarla birləşməkdə görürlər. Vətəndaş Həmrəyliyi Partiyasına müraciət edərək birləşmək niyyətində olduğunu bildirən partiyalar var. Amma bu məsələ həmin partiyaların yekun və konkret qərarından sonra VHP-nin Siyasi Şurasında baxılacaq və münasibət açıqlanacaq. Təbii ki, indiki şəraitdə bəzi kiçik partiyaların birləşməsi və daha böyük partiyanın yaranması çox önəmlidir. Hazırda elə siyasi partiya var ki, təşkilatda sədrdən başqa heç kim yoxdur. O baxımdan bəzi partiyaların birləşməsi daha münasib addım kimi dəyərləndirilir”.

**İsmayıl**

# Banklardan kredit götürmək çətinləşə bilər

## Son illərdə kredit daha çox verildiyi üçün problemlər də çoxalır




**Azərbaycanda problemli kreditlər yenidən artmağa başlayıb. Mərkəzi Bankın açıqladığı hesabata əsasən, bu ilin fevralında problemli kreditlərin həcmi 22 milyon manat artaraq 606 milyon manata yüksəlib. Yanvarın sonunda isə bu məbləğ 584 milyon manat olub.**

Xatırladaq ki, 2022-ci il martın 1-də problemli kreditlərin məbləği 690 milyon manat təşkil edib.

Problemli kreditlərin artımının gözlənilən olduğunu deyən bank məsələləri üzrə ekspert Əkrəm Həsənov ”Şərq”ə vurğulayıb ki, son illərdə kredit daha çox verildiyi üçün problemlər də çoxalır: ”Səbəblər isə məlumdur. Əgər biznes kreditlərindən söhbət gedirsə, hansısa biznesmenin fəaliyyəti uğursuz olur və o, borclarını vaxtında ödəyə bilmir. İstehlak kreditlərindəki problem isə vətəndaşların maliyyə vəziyyətinin pisləşməsi ilə bağlıdır. Yəni ölkədəki qiymət artımı nəticəsində gəlirlər yerində qalır, xərclər artır. Buna görə də insanlar götürdüyü borcu vaxtında ödəyə bilmir və problemli kreditlərin sayı çoxalır”.

Ekspertin sözlərinə görə, problemli kreditlərdəki artımın böyük olduğunu da demək olmaz: ”Amma ümumi kredit portfelinin artması şəraitində, problemli kreditlərin həcmi daha da arta bilər. Bu isə bankların daha ehtiyatlı davranmasına gətirib çıxaracaq. Yəni banklardan kredit götürmək çətinləşə bilər”.

**Nihat**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azərbaycançılıq ideyasının təbliği



# Dahi şəxsiyyətlərin tarixi xidmətlərini saymaqla bitməz

## Ümummilli Liderin rəhbərliyi dövründə azərbaycançılıq məfkurəsi istiqamətində çox böyük, həm də qətiyyətli addımlar atılıb

**Müasir Azərbaycan dövlətçiliyinin banisi, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi bütün ölkədə təntənə ilə qeyd edilir. Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" 29 sentyabr 2022-ci il tarixli sərəncamından irəli gələrək ictimai-siyasi təşkilatlar, vətəndaş cəmiyyəti təmsilçiləri silsilə tədbirlər keçirir.**

Əslində imzalanmış sərəncam rəsmi xarakter daşıyır və Azərbaycan dövlətinin Ulu Öndər ideyalarına sadiqliyinin nümunəsidir. Azərbaycan xalqı isə Ümummilli Liderin xatirəsini daim əziz tutur, onu unutmur, bu böyük şəxsiyyəti daim qürurla, vüqarla xatırlayır. Heydər Əliyevi unutmaq mümkün deyil. Çünki Ümummilli Lider xalqımıza Azərbaycan boyda miras qoyub. Və onu əmin əllərə tapşırıb. Heydər Əliyevlə bağlı hər tədbirdə söz açılır, xatirəsi hörmətlə yad edilir, gördüyü işlər, Azərbaycanı güclü dövlətlər sırasına çıxarmasından danışılır. "Heydər Əliyev İli" çərçivəsində təşkil olunan tədbirlər, konfranslar Ulu Öndərin dövlətçiliyin möhkəmlənməsi yolunda gərgin fəaliyyətinin bir daha xatırlanması üçün daha bir imkandır. Belə tədbirlərdən biri bu günlərdə Xətai rayonunda keçirilib. Tədbirin "Heydər Əliyev və azərbaycançılıq ideologiyası" kontekstində təşkil edilməsinin özü də diqqətə layiqdir. Azərbaycançılıq ideologiyasının anladılmasında Ümummilli Liderin həyat və fəaliyyətindən daha bariz nümunə axtarmağa dəyməz. Qeyd edək ki, tədbir Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə keçirlib.

Tədbiri giriş sözü ilə açan YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə bildirdi ki, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi çərçivəsində silsilə tədbirlər davam edir. Dövlət başçısı İlham Əliyevin Sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi, eyni zamanda 18 müddəanı özündə əks etdirən Tədbirlər Planının təsdiqlənməsi dahi şəxsiyyətin fəaliyyətinin hər bir istiqamətinin daha dərindən təhlilinə, indiki və gələcək nəsillərə çatdırılmasına geniş imkanlar yaradır. Zaman keçdikcə, Ulu Öndər Heydər Əliyevin yaratdığı irsin, ideyalarının bəhrəsini daha yaxından görür, tarixi paralellər fonunda dahi şəxsiyyətin müstəqil Azərbaycan naminə etdiklərinin miqyasının ölçüyəgəlməzliyini böyük qürurla qeyd edirik. Dahi şəxsiyyətin fəaliyyətinin hər bir istiqaməti uğurlarla o qədər zəngindir ki, bütün bunları bir tədbirdə əhatə etmək qeyri-mümkündür. Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatı bu baxımdan "Heydər Əliyev İli" çərçivəsində keçirdiyi silsilə tədbirlərdə Ümummilli Liderin ayrı-ayrı sahələr üzrə titanik fəaliyyətinin təhlilinə xüsusi diqqət göstərir. Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq ideologiyası da dahi şəxsiyyətin fəaliyyətində mühüm istiqamətlərdən biridir. Vüqar Rəhimzadə qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin qərarlarda öz aydın ifadəsini tapır. Dünyaya səs salan tarixi Zəfərimizdə bu birliyimiz öz sözünü dedi. Tarixi Zəfərimizi şərtləndirən amillərdən bəhs edərkən Azərbaycan xalqının torpaq, Vətən sevgisi beynəlxalq səviyyədə də etiraf edildi.

Tədbirdə çıxış edənlər azərbaycançılıq ideologiyasının əsas tərkib hissələrindən, bu ideologiyanın müəllifi olan Ulu Öndər Heydər Əliyevin Azərbaycan dilinin, milli-mənəvi dəyərlərinin, tarixinin, ədəbiyyatının inkişaf etdirilməsi və təbliği istiqamətində atdığı addımlardan geniş bəhs ediblər. Bu mühüm məqam xüsusi vurğulandı ki, hakimiyyətinin birinci dövründə "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" tezisi bütün dövrlər üçün aktuallığını qoruyur, dünyanın harasında yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının həyat amalına çevrilir: "Dahi şəxsiyyət hər bir azərbaycanlıya Vətəni sevməyi öyrətdi. Bu çağırışı etdi ki, Vətən birdir və hamımız bu Vətən üçün çalışmalıyıq". YAP Xətai rayon təşkilatının sədri bildirib ki, Azərbaycanın ən çətin günlərində xalqının səsinə səs verərək 1993-cü ildə yenidən hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev bütün dünya azərbaycanlılarını vahid ideologiya - azərbaycançılıq məfkurəsi ətrafında birləşməyə çağırdı. 2001-ci ildə Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi diaspor quruculuğu istiqamətində mühüm addım oldu. Azərbaycançılıq ideologiyası bütün dünya azərbaycanlılarının birliyini, həmrəyliyini daha da möhkəmləndirdi. Vüqar Rəhimzadə onu da qeyd edib ki, son 20 ilə yaxın dövrdə Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi birliyimizin, həmrəyliyimizin möhkəmləndirilməsi istiqamətində atılan addımlarda, qəbul edilən Ulu Öndərin Azərbaycanın gələcəyini düşünərək uzaqgörənliklə atdığı addımlardan biri azərbaycanlı gəncləri gələcəyin müstəqil ölkəsi üçün gərəkli ixtisaslara yiyələnmək üçün keçmiş İttifaqın nüfuzlu ali məktəblərinə göndərmək təcrübəsi kimi dəyərli təhsil ənənəsinin əsasını qoyması olub. Bu yolla Azərbaycanın elm və kadr potensialı yüksəldiyi kimi, xalqımızın milli-mənəvi dəyərlərinin təbliği də həyata keçirilirdi. Həmin illərdə ölkəmizdəki intibahı şərtləndirən amillərdən biri gəncliyin ana dilində təhsilinə üstünlük verilməsi olub. Milli hərbi kadrların hazırlanması da xalqın müstəqil gələcəyini düşünən Ulu Öndər Heydər Əliyev üçün böyük əhəmiyyətli məsələ idi. Azərbaycançılıq ideologiyasının inkişafı hər bir vətəndaşın torpaq, Vətən sevgisindən, milli-mənəvi dəyərlərə, tarixinə, dilinə bağlılığından irəli gəlir. Hər birimiz öz ana dilimizi sevməli, inkişaf etdirməliyik. Hər bir xalqı dünyada tanıdan onun dilidir. Əbəs yerə deyilmir ki, bir xalqı, milləti məhv etmək istəyirsənsə, onun dilini əlindən al. Ulu Öndər Heydər Əliyevin hələ hakimiyyətinin birinci dövründə Azərbaycan dilinin diqqətdə olması üçün göstərdiyi səylərə diqqət yetirsək görərik ki, məhz onun qətiyyəti sayəsində 1978-ci il Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit olundu. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra azərbaycançılıq ideologiyasının inkişaf etdirilməsi dövlət siyasətinin əsas tərkib hissəsinə çevrildi və mühüm qərarların qəbulunda əhəmiyyətli rol oynadı.

**"Heydər Əliyev və azərbaycançılıq ideologiyası"ndan danışan millət vəkili Aydın Hüseynov "Şərq"ə açıqlamasında bildirib ki, xalqımızın böyük oğlu, dahi şəxsiyyət Heydər Əliyev hələ respublikamıza birinci rəhbərliyi dövründə azərbaycançılıq məfkurəsi istiqamətində çox böyük, həm də qətiyyətli addımlar atmışdı:**

- Azərbaycan tarixinin, dilinin, ədəbiyyatının, mədəniyyətinin hərtərəfli şəkildə və dərindən öyrənilməsi, təbliği, gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsində, milli şüurun dirçəlişi, ümumən, bütün sahələrdə azərbaycançılıq amalının möhkəm, etibarlı bazasının formalaşdırılması yönündə həyata keçirilən qətiyyətli tədbirlər məhz Ulu Öndərin parlaq dühası, ardıcıl səyləri sayəsində reallaşıb. Azərbaycançılığın bütün dünya azərbaycanlılarını birləşdirən ideologiya halına gəlməsi, müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevrilməsi Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətidir. Bu gün azərbaycançılıq milli həyatın ahəngdarlığının, konfessiyaların dinc yanaşı yaşamasının, ölkədə yaşayan bütün etnosların qardaşcasına qarşılıqlı əlaqəsi və təsirinin çoxəsrlik ənənəsi, onların ümumi taleyi və gələcək müstəqil Azərbaycanın bütövlüyü, inkişafı və firavanlığı uğrunda birgə mübarizəsinin ümumi tarixi təcrübəsidir. Heydər Əliyevin azərbaycançılıq məfkurəsi milli həmrəyliyi, bütövlüyü təmin edən, milli təəssübkeşlik və vətənpərvərlik hissini gücləndirən bir məfkurədir. Ümummilli Liderin müəllifi olduğu, sistemləşdirdiyi azərbaycançılıq ideologiyası təkcə bu ölkənin ərazisində yaşayan insanları yox, eyni zamanda bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edir və dünya azərbaycanlılarının milli istinad mənbəyinə çevrilib. Müasir müstəqil Azərbaycan dövlətinin ideya əsaslarını da azərbaycançılıq ideologiyası təşkil edir. Xalqımız bu ideologiya və onun milli şüurumuzda möhkəmlənməsini Ulu Öndərə borcludur.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# 200 min manata qaldırıldı

## Ciblərində bu qədər pulu olan əcnəbilər Azərbaycanda daimi yaşamaq hüququna malik olacaq

**Miqrasiya Məcəlləsinə dəyişikliklə təklif olunur. Bildirilir ki, dəyişikliklər yerli əmək bazarının qorunması, daşınmaz əmlak bazarının, qiymətli kağızlar və bank sektorlarının inkişafına dəstək, real investisiya qoyuluşu ilə nəticələnməyən xarici investisiyalı kommersiya hüquqi şəxslərin sayının süni surətdə artması riskinin qarşısını almaq, eləcə də miqrasiya sahəsində dövlət siyasətinin daha da təkmilləşdirilməsi məqsədilə həyata keçirilir.**

Miqrasiya Məcəlləsinə dəyişikliklərlə bağlı qanun layihəsi Milli Məclisin iclasında müzakirəyə çıxarılıb. Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq üçüncü oxunuşda qəbul edilib. Dəyişikliklər nə vəd edir?

**Mövzu ilə bağlı "Şərq"ə danışan miqrasiya məsələləri üzrə mütəxəssis Azər Allahverənov bildirdi ki, Miqrasiya Məcəlləsinə dəyişikliklər bir neçə ildir təklif olunur. Bu zaman həm iqtisadi aspektlər, həm də əmək bazarıyla bağlı mövcud vəziyyət nəzərə alınır. Miqrasiya sahəsi dəyişən bir fenomendirsə, miqrasiya proseslərini tənzimləyən qanunvericilik bazasının da dəyişikliyə cavab verəcək tərzdə olması zəruridir:**

- İstənilən dövlətdə həmin dövlətin digərləri ilə miqrasiya mübadilələri olur. Bu sənəd bir çox göstəricilərlə, indikatorlarla özünü büruzə vermiş olur. Əsas indikatorlar ölkə ərazisinə gəlib, müvəqqəti və ya daimi yaşayış icazələri olan, əmək fəaliyyəti ilə məşğul olan şəxslərlə bağlı olan indikatorlardır. Zaman-zaman həmin kateqoriyadan olan əcnəbilərlə bağlı ümumi vəziyyət dəyərləndirilir. Yəni hər dövrün tələblərinə uyğun olaraq yeni çağırışlar formalaşır və buna uyğun olaraq da qanunvericilik təkmilləşdirilir. Necə ki, miqrasiya sahəsinin, bu prosesin özü dəyişən bir fenomendir, eynilə də həmin miqrasiya proseslərini tənzimləyən qanunvericilik bazasıdır ki, dəyişikliyə cavab verəcək tərzdə olsun.

Qeyd edək ki, dəyişikliklərdə daha çox hallandırılan məqam Azərbaycanda əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə 100 min manat dəyərində dövlət qiymətli kağızlarına sahib olduqda müvəqqəti yaşamaq icazəsinin verilməsi ilə bağlı müddəanın dəyişdirilməsidir. *A.Allahverənov bildirdi ki, sahibkar miqrantlar Azərbaycanda mövcud qanunvericiliyə əsasən, iş icazəsi ilə müvəqqəti yaşamaq hüququna malik olurlar. Lakin son illərdə müşahidə edilən vəziyyətə görə, bu imkandan sui-istifadə edənlər də olurdu:*

- Qanuna təklif olunan dəyişikliyə görə, Azərbaycanda müvəqqəti yaşamaq üçün minimum 100 min manat kifayət qədər uyğun məbləğdir ki, əcnəbilər burada mülkiyyət sahibi olsun. Lakin əmlak bazarında 100 min civarında olan daşınmaz əmlak tez satıldığı üçün daha baha qiymətə olan əmlaklar qalırdı və istehlakçılar narazılıq edirdi. Yeni dəyişikliyə görə isə həmin məbləğin 200 min manata qaldırılması xarici vətəndaşın cibinə uyğundursa, o, burada daimi yaşamaq hüququna malik olacaq. İstər 200 min manatlıq tələb, istərsə də tələblərin sərtləşdirilməsi ilə bağlı irəli sürülən digər bir sıra təkliflər artıq bir neçə ildir ki, müzakirə olunmaqdadır. Burada miqrasiya sahəsində real vəziyyət, əmək bazarı öyrənilir, eyni zamanda müvəqqəti yaşamaq icazəsi almaq istəyən əcnəbilərin halları nəzərdən keçirilir və konkret olaraq müəyyən sui-istifadə hallarının qarşısını almaq məqsədilə təkliflər irəli sürülür. Miqrasiya proseslərinin səmərəli idarə olunmasında maraqlıyıqsa, təbii ki, sui-istifadə hallarının qarşısını almalıyıq. Ümumilikdə, Miqrasiya Məcəlləsində qeyd edilən dəyişikliklərin edilməsini çox müsbət hal kimi qiymətləndirirəm və ümid edirəm ki, hazırda müzakirə olunan bu yeniliklər qanuna əlavə olunacaq. Hesab edirəm ki, qanunun təkmilləşdirilməsi miqrasiya sahəsində mövcud olan sui-istifadə hallarının qarşısını alacaq və nəticə etibarı ilə bu sahəni daha da şəffaflaşdıracaq.

**Məlahət**

# Hər dua bir ağızdı

## Çağdaş Azərbaycan şeirinin istedadlı nümayəndəsi Əkbər Qoşalının 50 yaşı tamam oldu

**Bəlkə də bir gələn var,**
**Gözlərim yol çəkir, yol;**
**Ölü dillər kimiyəm,**
**Sözlərim yol çəkir, yol...**



Gözləri də, sözləri də yol çəkən şair, nasir, publisist, Dünya Gəncləri Türk Yazıçılar Birliyinin fəxri başqanı Əkbər Qoşalıdır. Nəzərə alsaq ki, şairlər, hansı yaşda olursa-olsun, adətən özlərini gənc hesab edir, bu baxımdan 50 yaş Əkbər Qoşalını nəhayət "tapdı", deyək. 50-nin şairi axtarıb tapması "münasibətiylə" dostları bir neçə gündür ona ürək sözlərini, arzularını yazır. Sosial şəbəkədə də Əkbər Qoşalının ad günü təntənəsi yaşanır. Şairin dostları da çoxdur, sevənləri də. Geri qalmaq istəmirlər, şairə səmimi təbriklərini göndərirlər. "Şərq" də təbriklərə qoşulur və şairi 50 yaşının tamam olması münasibətiylə təbrik edir. Diqqətimizi çəkənsə 2 ustadın - Xalq yazıçısı Nəriman Həsənzadə və Anarın ürək sözləri oldu.

Ustad Nəriman müəllim təbrikində yazır ki, "əziz qardaşım, siz şərəfli əlli yaşınıza ədəbi yaradıcılığınızın və ictimai fəaliyyətinizin halal nüfuz qazandığı bir vaxtda qədəm qoyursunuz. Bir növ "Seçilmiş əsərlər" təsiri bağışlayan "Ürək daşı" adlı kitabınızdakı şeirləri məmnuniyyətlə oxudum, bizim sonuncu Yazıçılar Qurultayında müasir poeziyamız barədə məruzəçi gözəl şairimiz İbrahim İlyaslının əhatəli ön sözünü də maraqla izlədim. Bütün bunlardan savayı, Şuşa haqqında yazdığınız şeirləri, poemaları görkəmli tənqidçimiz Vaqif Yusiflinin Türk dünyası ilə sizin geniş yaradıcılıq əlaqələrinizə həsr etdiyi həcmli təhlili də bu fikri hallandırır ki, sizin türkçülüyünüz və bütün yaradıcılığınız ədəbi hadisədir. Həm şəxsi, həm də ədəbi əlaqələriniz barədə deyilənlər, əlbəttə, məni sevindirir. Dünya Gəncləri Türk Yazıçılar Birliyinin fəxri başqanı kimi, ədəbi-ictimai-siyasi hərəkata rəhbərlik edirsiniz. Qardaş türk ölkələrinin dünyada türk həmrəyliyini elan etdiyi bir vaxtda, bu ədəbi-ictimai fəaliyyətiniz yəqin ki, böyük məna kəsb edir. ...Bu dünya köhnə dünyadı, siz onu təzə görə bilirsiniz, buna inandığınız üçün də oxucunu inandıra bilirsiniz. Məncə, bu, təbiidir. İstedadın gözü görür, qulağı eşidir, qəlbi də duyur..."

**Xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin sədri Anar isə Əkbər Qoşalını belə təbrik edib:**

Əkbər Qoşalının həm xalq şeirindən, folklordan qaynaqlanan, həm də sərbəst şeirimizin ənənələrinə söykənən poeziyası öz oxucusu ilə asanlıqla dil tapıb. Bəzən lirik səciyyəli, bəzən Vətənə, torpağa sevgidən ilhamlanan maraqlı şeirləri oxucularının qəlbini oxşayıb. Əkbər Qoşalı həm də o ədəbi isimlərdəndir ki, ömrünün düz yarısını yazıb-yaratmaqla yanaşı ardıcıl və məhsuldar şəkildə ədəbiyyatımızın təbliğinə, türkdilli ölkələr və xalqlar arasında ədəbi mübadilə işinin təşkilinə həsr edib. Bu işdə çoxlu uğurlar qazanıb. Əsərləri onlarla dilə tərcümə edilərək nüfuzlu dərgilərdə, ayrıca kitablar kimi nəşr edilib. Prezident təqaüdünə layiq görülüb. Əkbər həm ədəbiyyata, sözə, həm də həqiqi vətəndaş və ziyalı kimi dövlətə və xalqa səmimiyyətlə xidmət edib. Çağdaş Azərbaycan şeirinin istedadlı nümayəndəsi Əkbər Qoşalının 50 yaşı tamam olur. Əkbəri təbrik edirəm. Qoy ömrü bundan sonra da elə əvvəlki kimi dolğun, yaradıcılıq coşqusu ilə keçsin".

**"Şərq" isə**
**"Göy ulu, yer yağızdı,**
**Hər dua bir ağızdı;**
**Bu - qələm, bu - kağızdı,**
**Özləri qol çəkir, qol...**
**Uzaq yolum təngiyir,**
**Uzun qolum ləngiyir;**
**Sağ gözümdü səyriyir,**
**Ürəyim sol çəkir, sol..."**

misralarının müəllifinə gözü səyriyəndə şad xəbərlər almağı arzulayırıq. Ömrünüz uzun, canınız salamat olsun, Əkbər Qoşalı.

**Məlahət**

# Antibiotikləri uşaqların əli çatmayan yerə qoymaq lazımdır

## Hepatoloq-infeksionist qida zəhərlənmələri barədə məlumat verib

**Mart ayı ərzində Kliniki Tibbi Mərkəzə (KTM) zəhərlənmə ilə bağlı 790 nəfər müraciət edib. Mərkəzin Mətbuat xidmətindən "Şərq"ə verilən məlumata görə, onlardan 139-u Toksikologiya şöbəsinə qəbul edilib, digərlərinə isə ilkin tibbi yardım göstərilərək evə buraxılıb.**

Qəbul olan xəstələrdən 72-si dərmandan, 30-u sirkə turşusundan, 5-i dəm qazından, 10-u alkoqollu içkidən, 8-i qidadan (botulizm), 1-i göbələkdən zəhərlənib. Digərlərindən 4-ü anaflaksiya, 8-i allergik reaksiya səbəbindən xəstəxanaya yerləşdirilib. Həmçinin onlardan 1-ni isə həşərat sanjıb.



Zəhərlənən şəxslərin 58-i qadın, 49-u kişi, 32-si isə uşaq olub. Həkimlərin səylərinə baxmayaraq, 5-i sirkə turşusundan, 3-ü dərman zəhərlənməsindən, 1-i spirtli içkidən, 1-i dəm qazından, 1 nəfər isə botulizimdən dünyasını dəyişib. Dünyasını dəyişən şəxslərdən 9-u kişi, 2-si qadındır.

**Hepatoloq-infeksionist Azər Nağıyevin sözlərinə görə, ən çox qida zəhərlənmələri mayonez qatılmış salatlar, meyvə-tərəvəzlər, tomatla hazırlanmış və düzgün saxlanılmayan məhsullarla qidalanma nəticəsində əmələ gəlir:** "Zəhərlənmələr xroniki və kəskin bağırsaq xəstəliyi keçirmiş, hipovitaminozu olan şəxslərdə, eləcə də uşaqlarda və qocalarda tez-tez baş verir, sürətlə inkişaf edir və ağır formaya keçə bilir. Eyni ərzağı qəbul etmiş şəxslərin bir vaxtda xəstələnməsi, gizli dövrü qısa olmaqla (orta hesabla 6-24 saat) qəflətən baş verməsi, sanitariya qaydalarının pozulması şəraitində hazırlanmış qidanın qəbulu ilə əlaqədar xəstələnmənin baş verməsi, zəhərlənməyə səbəb olan qida istifadədən çıxarıldıqda zəhərlənmə hallarının kəskin azalması qida zəhərlənmələrinin əsas səjiyyəvi xüsusiyyətləridir. Uşaqlarda zəhərlənmələrin böyük qismi ehtiyatsızlıqdan, nəzarətsizlikdən baş verir. Daha çox rəngli vitaminlər, dərman preparatlarının qəbulundan qaynaqlanan zəhərlənmə halları baş verir. Şəkər dərmanları, sakitləşdirici, antibiotikləri uşaqların əli çatmayan yerə qoymaq lazımdır. Azyaşlılar nəzarətsiz qalanda bu kimi xoşagəlməz hallar baş verə bilir.

Eləcə də sirkə turşusu ən riskli məsələlərdəndir. Sirkə turşusunu əlçatan yerə qoymaq olmaz. Ağır zəhərlənmə olmasa da, uşaq orqanizmi həssasdır, selikli qişaları yandıqdan sonra ağır nətijələr ola bilir".

İnfeksionistin sözlərinə görə, qida mənşəli zəhərlənmələrin səbəbi qida ilə orqanizmə mikrobların, zəhərli maddələrin və ya zəhərli bitkilərin daxil olmasıdır. Qida zəhərlənmələrinin 90 faizini bakterial təbiətli zəhərlənmələr təşkil edir. Qida toksikoinfeksiyalarının ən geniş yayılmış forması salmonellozlardır ki, bunlara səbəb əksər hallarda heyvan mənşəli ərzaq məhsullarıdır. Bu məhsulların tədarükü, daşınması, saxlanılması, bişirilməsi və realizasiyası zamanı gigiyenik qaydalara düzgün riayət olunmazsa, ərzağın bakterial çirklənməsi baş verə bilər. Bu jür çirklənmiş ərzaq məhsullarının lazımi termiki işlənmədən keçmədən, yaxud da soyudujuda saxlanmadan qəbul edilməsi qida toksikoinfeksiyalarına səbəb ola bilər".

**Həkimin sözlərinə görə, zəhərlənmənin əsas əlamətləri 6-36 saatlıq gizli dövrdən sonra başlanır:** "Qida zəhərlənmələrinin ən ağır növü botulizmdir. Bu növ zəhərlənməyə ilin hər fəslində təsadüf etmək olar. Mikroblar uzun müddət torpağın üzvi maddələrində oksigensiz mühitdə inkişaf edir və buradan da qidaya keçirlər. Botulizm qida zəhərlənmələri əsasən ət, balıq, kolbasa məmulatı, göbələk və bəzən tərəvəz konservlərini yedikdə baş verir. Botulizm mikroblarının ifraz etdiyi toksin bütün mikrobların zəhərindən güjlüdür, odur ki, botulizm zəhərlənmələri olduqja ağır keçir və yüksək ölüm faizinə malikdir. Belə zəhərlənmə zamanı xüsusilə hərəki sinir lifləri, tənəffüs və ürək fəaliyyəti iflic olur".

**Şəymən**

### Elanlar

"GİLAN AQRO" MMC
VÖEN: 1402468001
"GİLAN AQRO" MMC (VÖEN:1402468001) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "GİLAN AQRO" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"EVENTS MANAGEMENT AZERBAİJAN" MMC
VÖEN: 1304737151
"EVENTS MANAGEMENT AZERBAİJAN" MMC (VÖEN:1304737151) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "EVENTS MANAGEMENT AZERBAİJAN" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"DİZAYN+" MMC
VÖEN: 2000982041
"DİZAYN+"MMC (VÖEN:2000982041) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "DİZAYN+" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"D.S. DYNAMİC SOFT" MMC
VÖEN: 1303803011
"D.S. DYNAMİC SOFT" MMC (VÖEN:1303803011) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "D.S. DYNAMİC SOFT" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"BAHÇECİ BAKI QADIN SAĞLAMLIQ MƏRKƏZİ" MMC
VÖEN: 1303908471
"BAHÇECİ BAKI QADIN SAĞLAMLIQ MƏRKƏZİ" MMC (VÖEN:1303908471) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "BAHÇECİ BAKI QADIN SAĞLAMLIQ MƏRKƏZİ" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"BAKU RENDERİNG" MMC
VÖEN: 1304555431
"BAKU RENDERİNG" MMC (VÖEN:1304555431) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "BAKU RENDERİNG" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"TOVUZ QİDA MƏHSULLARI MÜƏSSİSƏSİ" MMC
VÖEN: 7301189921
"TOVUZ QİDA MƏHSULLARI MÜƏSSİSƏSİ" MMC (VÖEN:7301189921) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "TOVUZ QİDA MƏHSULLARI MÜƏSSİSƏSİ" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"JALƏ" UŞAQ BAĞÇASI
VÖEN: 4400677191
"JALƏ" UŞAQ BAĞÇASI (VÖEN:4400677191) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "JALƏ" UŞAQ BAĞÇASININ ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"AGS" MMC
VÖEN: 3400287141
"AGS" MMC (VÖEN:3400287141) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "AGS" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.: 1300858401

"BEL AZ SERVİS" MMC (VÖEN:1300858401) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "BEL AZ SERVİS" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.



*Tanınmış şair Taleh Mansurun "İlahi xəyal" adlı yeni şeirini təqdim edirik.*

**Şeir qəlbi şah tutasan, şax qala,
Söz başını düz önündə əyəsən.
Qoşulasan ilahi bir xəyala,
Aradabir gedib ərşə dəyəsən.**

**Azıb yolu duman-çənə düşəsən,
Qızılgülə, yasəmənə düşəsən,
Dönüb şehə göy çəmənə düşəsən,
Leysan olub çiçəkləri döyəsən.**

**Şahlar dönür, qullar dönür Allaha,
Qağayılar, qular dönür Allaha.
Ay göz yaşım, sular dönür Allaha,
Bəs nə üçün qayıtmırsan göyə sən?**

**Batıb çıxan Günəş insan, Ay insan,
Toparlanıb il olmadın, ay insan.
Cavab axtar, sual vermə, ay insan,
Sən dünyada ən cavabsız niyəsən**

**Doğma cismi özgə bilməz kəfənin,
Dirildəcək səni ölməz kəfənin.
Ölüb geysən, əynə gəlməz kəfənin,
Gərək onu dirigözlü geyəsən.**

**Yalan oldu düzdə qaçan xəyallar,
Qanad saldı quştək uçan xəyallar.
Yer üzünə ayaq açan xəyallar
Göy üzünü unutdular, deyəsən.**

# Turizmlə bağlı ölkədə müəyyən işlər görülməlidir

## Müştərilərə qonşu ölkələrdən fərqli, sərfəli təkliflər verilməlidir

**Dövlət Turizm Agentliyi 2026-cı ilə qədər ölkəyə gələn xarici turistlərin illik sayını 4 milyona çatdırmağı hədəfləyir. Bunu Agentliyin sədri Fuad Nağıyev "Bakı Ekspo" Mərkəzində keçirilən 19-cu Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər Sərgisinin ("AITF 2023") açılış mərasimində bildirib.**



Bundan başqa, onun sözlərinə görə, yaxın 3 ildə yerli turistlərin illik sayının isə 6 milyona çatdırılması nəzərdə tutulur.

"Azərbaycanda turizmin inkişafı üçün böyük potensial var və bu məsələ bizim üçün prioritetdir. Hazırda əsas məqsədimiz koronavirus (COVID-19) pandemiyasından əvvəlki rəqəmi bərpa etmək, daha böyük inkişafa nail olmaqdır. Ötən il Azərbaycana 1,6 milyon turist səfər edib. Bu da 2019-cu ilin göstəricisinin 50 faizi deməkdir", - deyə F.Nağıyev qeyd edib.

Sədr həmçinin deyib ki, 2026-cı ildə turizm və ictimai iaşə sektorunda ümumi daxili məhsul (ÜDM) istehsalının 2019-cu illə müqayisədə 1,5 dəfə artacağı, bu sahədə ildə 20 faiz artım olacağı gözlənilir.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən iqtisadçı-ekspert Fuad İbrahimov bildirib ki, bu proqnozlaşdırılanları həyata keçirmək üçün şüarlı çıxışlar yetərli deyil. Bunun üçün müəyyən işlər görülməlidir:** "Proqnozlaşdırmaq işin asan tərəfidir, çünki ölkəmizin maddi-texniki təchizat bazası yetərli qədərdir. İnfrastrukturumuz, aeroportumuz, hotellərimiz lazımi dərəcədə və səviyyədədir. Bunun icra mexanizmini hərəkətə gətirmək lazımdır. Ölkəyə gələn turistlər üçün şərait yaradılmalıdır. Onların rahatlıqla Azərbaycana gəlmələrini təmin etməliyik".

*Ekspert qeyd edib ki, turizmin inkişafı, ölkəyə gələn turistlərin sayında artım olması üçün iki əsas amil mövcuddur:* "Bunlardan birincisi, Azərbaycanın xarici ölkələrdə yerləşən səfirliklərinin, Azərbaycanı təmsil etdikləri ölkələrdə tanınmasını, xalqların ölkəmiz haqqında məlumatlandırılmasını təmin etmələridir. Sözün açığı, Xarici İşlər Nazirliyi bu məsələdə öz üzərinə düşən vəzifəni son zamanlar artıqlaması ilə həyata keçirməyi bacarır.

Ancaq ikinci məsələ onların bura gəlməsi üçün lazımi şəraitin yaradılmasıdır. Quru sərhədlər bildiyimiz kimi bağlıdır. Hazırda ölkəmizə səyahət yalnız hava yolu vasitəsilə baş tuta bilər. Biz bu cəhətdən də bölgədəki bütün ölkələrdən geridəyik. Ən yüksək qiymət bizim ölkədə müşahidə olunur. Qonşu dövlətlərlə birlikdə tur paketləri yaradılmalıdır. Bu tur paketlər zamanı müəyyən hotellərlə birlikdə endirimlər təmin edilməlidir. Hotellərin təsnifatı şaxələnməlidir. Xarici turist öz ölkəsindən bura gəlmək üçün internet vasitəsilə sorğu verirsə, orada kifayət qədər təkliflər önə çıxmalıdır. Bütün bu məsələlər üzərində işləməli və lazımi tədbirlər görülməlidir".

**F.İbrahimov həmçinin vurğulayıb ki, daxili turizmdə ölkə istənilən səviyyəyə gəlib çatmayıb:** "Bu gün Gürcüstan paketi əlverişlidirsə, vətəndaş üçün daha ucuz başa gəlirsə, o zaman daxili turizmi artırmaq mümkün olmayacaq. Biz qonşu dövlətlərin istirahət guşələrinə alternativ təkliflər verməliyik. Elə olduğu halda kapital axını olmayacaq, insanlar öz ölkəsində istirahət edəcəklər. Turizmin daha da inkişafına şərait yaranacaq. Gündə bir elan verməklə bu məqsədlərə çatmaq mümkün deyil. Bunun üçün sözdə deyil, əməldə səylər göstərmək lazımdır".

**Nihad Kərimli**

## "Anlamayana qədər heç bir..."

Mehriban Zəki məşum qəzadan yazdı



**Bir müddət əvvəl yol-nəqliyyat hadisəsi zamanı yaralanan Xalq artisti Mehriban Zəki növbəti dəfə paylaşım edib.**

"Şərq" xəbər verir ki, bu haqda o, İnstaqramda fotosunu izləyiciləriylə bölüşüb və bu sözləri yazıb: "Anlamayana qədər heç bir emosiyanı yaşaya bilməzsən".

*Qeyd edək ki, sənətçinin yaralandığı qəzada "SOY" prodakşının rəhbəri Oqtay Əliyev həlak olub.*

**Samirə**

# İndiyədək təsdiqlənməyib

## İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizliklə bağlı Milli strategiya ciddi məsələdir

**"Proqram təminatı xarici ola bilər, amma onu işlədən mütləq yerli olmalıdır". Bu sözləri Azərbaycan İnternet Forumunun Prezidenti Osman Gündüz deyib.**

Onun sözlərinə görə, bu məsələ Milli Məclisdə "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanuna təklif edilən dəyişiklikdə öz əksini tapıb: "Kritik qurumların təhlükəsizliyini qoruyan şirkət - kibertəhlükəsizlik xidməti provayderinin təsisçisi və onun səlahiyyətli nümayəndəsi, rəhbər heyəti, bu fəaliyyətə cəlb edilmiş digər əməkdaşlar Azərbaycan Respublikasının vətəndaşı olmalıdırlar. Əslində, doğru yanaşmadır.



Əgər söhbət strateji dövlət və özəl sektorun datasının və şəbəkəsinin real vaxtda monitorinqindən, izlənilməsindən gedirsə, bunun yerli qurumlar tərəfindən gerçəkləşməsi doğru yanaşmadır. Amma addım-addım bu sahədə istifadə olunan proqram məhsullarının da daha çox yerli məhsul olmasına diqqət yetirmək doğru olardı. Kritik qurumların siyahısı isə DTX və XRİTDX-nin təklifləri əsasında Nazirlər Kabineti tərəfindən təsdiq ediləcək. Xeyli müddətdir ki, hazır olduğu bildirilsə də, bu siyahılar təsdiqlənməyib. Yeri gəlmişkən, İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizliklə bağlı Milli strategiya da uzun müddətdir ki, hökumətə təqdim edilməsinə baxmayaraq indiyədək təsdiqlənməyib".

**Şəymən**

AMİP lideri Etibar Məmmədov Fuad Muxtarova atası

**Telman**

kişinin vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

"Millət" qəzetinin baş redaktoru Əli Orucov Fuad Muxtarovun atası

**Telmanın**

kişinin vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

### Elan

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Hərbi hospitalı tərəfindən 19.12.1997-ci ildə Hüseynov Asəf Hüseyn oğluna verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 849



## 106 yaşlı tatu ustası rekord qırdı

O, ən yaşlı adam kimi örtük modeli oldu

**Filippinli tatu ustası Apo Vanq-Od redaktorlar qrupu tərəfindən yekdilliklə "Vogue" jurnalının 2023-cü ilin aprel sayının üz qabığında yer almaq üçün seçilib.**

"Vogue" juralında qeyd olunur: "Öz cəmiyyətindən kənarda insanlara döymə vurmaqla, itməyə başlayan qədim çubuq və tikan döymə sənətinə marağı yenidən artırdı. İndi 106 yaşlı mambabatok ənənəni davam etdirmək istəyən yeni nəsil döymə sənətçilərinə rəhbərlik edir.

106 yaşlı tatu ustası gənclik illərində atasının rəhbərliyi altında əl ilə döymə vurmağa başlayıb və dövrünün ilk və yeganə qadın döymə ustası olub.

Apo Vanq-Od insanların dərilərinə müqəddəs motivlər həkk etmək üçün yaxın və uzaq kəndləri gəzirdi.

Yerli əhalinin anlayışına görə, qızıl və zərgərlik kimi əşyalardan fərqli olaraq, bu döymə dizaynları qəbilə xalqını axirət həyatına qədər izləyir.

Apo Vanq-Od dizaynlarını pambıq çubuğu, pomelo tikanı, su və kömürdən istifadə edərək yaradır. Digər tərəfdən, 106 yaşlı filippinli Apo Vanq-Od, 2020-ci ilin may ayında "Vogue" jurnalının üz qabığında görünən ən yaşlı qonaq kimi Cudi Dençin rekordunu qırıb.

## Bakıda pələng balaları dünyaya gəlib

Balalar əraziyə hələ öyrəşmədiklərinə görə, anadan ayrılmır



**Bakı Zooloji Parkında pələng balaları dünyaya gəlib.**

Bu barədə Bakı Zooloji Parkının sosial şəbəkə hesablarında paylaşım edilib.

Pələnglərin 1-i erkək, 2-si isə dişidir.

Çəkiləri 5.4 - 5.7 aralığındadır. Balalar əraziyə hələ öyrəşmədiklərinə görə, anadan ayrılmır. Qidalarını isə ana pələng öz yuvasına gətirir.

Pələng balaları 4 yaşında müstəqil həyata başlayır. Yeni doğulmuş pələng balalarının gözləri və qulaqları açılmamış vəziyyətdə olur. Bu vaxtadək onlar analarının müşahidəsi altında olurlar.

"Yeni doğulmuş pələng balalarına hələ ki, ad verilməyib, çünki onların adlarını Siz tərəfdən seçilməsini istərdik! Balalara yaraşdırdığınız adları rəy bölməsində qeyd edin, görək ən yaxşı ad təklifi kimdən gələcək", - deyə paylaşımda qeyd olunub.



# 9 universitetə daxil oldu

## 18 yaşlı gənc seçim qarşısında: "Harvard", "Stanford"?





**Daha bir uğur hekayəsinin müəllifi 18 yaşlı qız Gül Karen Aça dünyanın ən nüfuzlu 9 ali təhsil müəssisəsinə eyni vaxtda qəbul olunub. Ali məktəblər arasında məşhur "Harvard" və "Stanford" universitetləri də var. "Şərq" "NTV,com.tr"yə istinadən bildirir ki, Gül Aça Türkiyənin Diyarbəkir bölgəsində anadan olub, orada böyüyüb, orta təhsilini də Diyarbəkirdə alıb.**

Anası musiqi, atası isə riyaziyyat müəllimidir. Gül orta təhsil illərində bilikli, bacarıqlı şagird kimi tanınıb. "Müxtəlif yarışlara qatılırdıq. Yarışmalardan birində bioplastika üzərində çalışmışıq. Bu məsələdə bizə Diclə Universitetinin professorları yardım etdi, onlarla birlikdə çalışdıq. Çətin mərhələni keçdik, finala yüksələn 10 komanda arasında yer tutduq", söyləyən Gül Aça "Harvard və Stanford universitetləri də daxil dünyanın 9 ali məktəbindən təhsil haqqının tam ödənilməsiylə təklif alıb. Gül hələ də bir qərar verə bilmədiyini, "Harvard"la "Stanford" "arasında qaldığını" deyib. Gül Aça 2 il əvvəl "Google" və "Oxford"un ortak təşəbbüsü olan "Rise for the World" tərəfindən dünyanın ən parlaq 100 şagirdindən biri seçilib. Bu səbəblə də dünyanın nüfuzlu ali təhsil ocaqlarının diqqətini cəlb edib. "Harvard", "Stanford"la yanaşı Con Hopkins, Duke, Nortvestern, Berkeley, Toronto, "Georgia Institute of Techonolgy", Kalifornia Santa Kruz universitetlərinə də tam təhsil haqqı dəstəyi ilə qəbul olunub və bu universitetlər onu qarşılamağa hazır olduqlarını bildiriblər. Gül Aça deyib ki, 5 ildir xarici ali məktəblərə daxil olmaq üçün hazırlıq keçir. Nəhayət, hədəfinə çatıb. Dünyanın ən parlaq 100 şagirdindən biri olan Gül Aça nevrologiya üzrə təhsil almaq istəyir. Gənc qızın arzusu doğma yurdu Diyarbəkir üçün xeyirli əməllərə imza atmaqdır. Gül Aça eyni sinifdə təhsil aldığı rəfiqəsi Avjin Aktopun da Nyu-York Universitetindən təklif aldığına sevindiyini deyib.

**Məlahət**

## Daha bir ölkə TikTok-u qadağan etdi




**Avstraliya Ədliyyə Nazirliyi bu gün TikTok platformasının dövlətə məxsus cihazlarda istifadəsini qadağan edib.**

**Bakupost.az xəbər verir ki, qərar bu sosial şəbəkənin risk yaratdığını əsas gətirərək qadağan edib.**

**Rəsmilər, qərarın ən qısa zamanda qüvvəyə minəcəyini vurğulayıb.**

**Xatırladaq ki, ABŞ, ardınca Kanadada fevralın 28-də təhlükəsizlik səbəbilə hökumətə məxsus mobil cihazlarda qadağan edilib.**

**Bundan əlavə, TikTok-u qadağan edən ölkələrə Yeni Zellandiya, Belçika, Danimarka, Fransa, Latviya, Hollandiya, Norveç və İngiltərə daxildir.**

## Kıvanç Tatlıtuğ boşanır?



**Kıvanç Tatlıtuğ və həyat yoldaşı Başak Dizerin ayrıldığı xəbəri ortaya çıxıb.**

**Bakupost.az xəbər verir ki, buna Serenay Sarıkayanın səbəb olduğu iddia edilib. Kıvanç Tatlıtuğ, çəkildikləri serialda ssenari tələbi ilə Serenay Sarıkaya ilə yaxınlaşıb. İddiaya görə, Tatlıtuğun həyat yoldaşı Başak Dizer öpüşmə səhnəsinə əsəbiləşib.**

**O, Tatlıtuğa xəbərdarlıq edib: "Bird aha təkrarlansa, boşanacam". Bu haqda Kıvanç Tatlıtuğdan da açıqlama gəlib: "Evdə və işdə də hər şey yolundadır. Hər layihədə təkrarlanan bu uydurma xəbərləri ciddiyə almırıq".**

## Ayaqlarını uzatmaq üçün 200 minindən keçib



**21 yaşlı alman model Tereziya Fişer boyunu uzatmaq üçün əməliyyat etdirib.**

**Axşam.az xəbər verir ki, model ayaqlarının uzunluğunu 14 santimetr artırıb. Tereziya ilk əməliyyatda ayaqlarının 8,5, daha sonra isə 5,5 santimetr uzandığını vurğulayıb. O, prosedurların ağrılı olduğunu deyib.**

**Model ümumilikdə əməliyyatlara 108 min avro (200 min 408 manat) xərcləyib ki, buraya bu müddət ərzində qəbul etdiyi güclü ağrıkəsicilərin qiyməti daxil deyil. Tereziya hazırda ayaqlarının uzunluğunun 116 santimetr olduğunu qeyd edib.**



## Əsəb və qorxu xərçəng xəstəliyi yaratmır

Əgər xəstəlik həqiqətən də "əsəblərdən" olsaydı, onkoloqlar deyil, psixoloqlar uğurla müalicə edərdilər



**Bir çox xəstə onkoloji diaqnoz haqqında öyrəndikdən sonra bu sualı özlərinə verdiyini etiraf edir. Xərçəng həmişə birdən-birə peyda olan xəstəlikdir. Bu diaqnozu görən xəstələr ilk anda ağrı və inciklik, gələcək qorxusu, bütün digər hisslərə kölgə sala bilən psixoloji durum yaşayırlar.**

"Medicina" xəbər verir ki, bu günə qədər, çoxillik tədqiqatların nəticələrinə görə, stress faktorlarının şişlərin əmələ gəlməsi ilə əlaqəsi təsdiqlənməmişdir.

Bu gün həkimlər və elm adamları xərçəngin hüceyrə genomunun zədələnməsi ilə əlaqəli kompleks sistemli xəstəlik olduğunu təkrarlamaqdan yorulmurlar. Əgər xəstəlik həqiqətən də "əsəblərdən" olsaydı, xərçəngi onkoloqlar deyil, psixoloqlar uğurla müalicə edərdilər.

LISOD psixoloqu Yanina Dzyuba bu barədə belə deyib:

"Bəlkə, amma çox, çox dolayı yolla psixi vəziyyət buna səbəb ola bilər. Məsələn, bir insan kəskin və ya xroniki stress altında olduqda, müəyyən davranışlar göstərməyə başlaya bilər: az yatmaq və istirahət etmək, passiv olmaq, hər zaman uzanmaq və çox az hərəkət etmək; və ya əksinə, istirahət və yaxşı yuxu haqqında unudaraq işə getmək; daha pis yeyə bilər (ac, az yemək və ya müxtəlif fast food yemək), siqaret və alkoqoldan sui-istifadə (son ikisi xərçəngin inkişafında tanınmış amillərdir). Bütün bunlar sonda yeni və ya xroniki xəstəliklərin kəskinləşməsinə səbəb ola bilər ki, bu da öz növbəsində onkoloji prosesin inkişafı üçün əsas ola bilər. Ancaq stressin özü deyil!"

Eyni zamanda, xərçəngin inkişafında virusların təsiri kimi sübut edilmiş digər amillər də var. Xüsusilə, insan papillomavirusunun iki növü, 16-cı və 18-ci, bütün uşaqlıq boynu xərçəngi və uşaqlıq boynunun xərçəngdən əvvəlki patoloji vəziyyətlərinin 70% -nə səbəb olur. Bundan əlavə, məlum risk faktorları siqaret, alkoqoldan sui-istifadə, çox bişmiş və yağlı qidalar və s.

## Marsda həyat varmı?

NASA-nın yeni kəşfi ümidləri artırır



**ABŞ Milli Aeronavtika və Kosmik Tədqiqatlar Agentliyi - NASA-nın "Perseverance" tədqiqat maşını Mars planetindəki Jezero kraterindən yeni qaya nümunələri toplayıb.**

"NTV.com.tr" xəbər verir ki, "Berea" adı verilən qaya nümunələrinin karbonatla zəngin olduğu müəyyənləşib. Tədqiqatçılar bunu Qırmızı Planetdə həyatın var olmasına dair ipucu hesab edirlər. Alimlər Marsdan götürülmüş nümunələrin dünyanın müxtəlif sınanmış elmi laboratoriyalarında tədqiq edərək planetdə qədim yaşayış izlərini tapmaq və Marsın səthini və daxilini təşkil edən suyun dövr etməsini daha dərindən anlamağa çalışırlar. Tədqiqatçıların rəyinə görə, "Berea" qayasından götürülmüş nümunələr qədim bir su axarı vasitəsilə gətirilmiş tortul təbəqəsindən ibarətdir. Bu isə həmin maddələrin Jezero krateri sərhədləri xaricində bir bölgədən gəlmiş ola biləcəyi anlamını verir və alimlər nümunələri bu baxımdan çox dəyərli hesab edir. Marsda nə vaxtsa həyat olduğunu isbatlaya biləcək ikinci dəlil isə qaya parçalarının karbonatla zəngin olmasıdır. Dünyadakı karbonat qayaları fosilləşmiş yaşam formalarının qorunmasında mühüm əhəmiyyət kəsb edir. Jezero kraterinin bu bölümündə bioimzalar mövcuddursa, deməli, bu qayalar Marsın sirlərini indiyədək çox gizli saxlaya biliblər. Jezero kraterinin maye ilə örtülü olması bilindiyi halda, Marsda iqlimin necəliyi isə hələ də naməlum qalır. Tədqiqatçılar ümid edir ki, "Berea" qayalığından götürülmüş nümunələr Marsdakı iqlimi də araşdırmağa kömək edəcək.

**Məlahət**

## 44 yaşlı Koch Ay ətrafında uçan ilk qadın olacaq

NASA Aya uçacaq astronavtların adlarını açıqlayıb




**Amerika Milli Aeronavtika və Kosmik Tədqiqatlar İdarəsi (NASA) gələn il Ay ətrafında dövr edəcək astronavtların adlarını açıqlayıb.**

Trend-in məlumatına görə, NASA Apollon 11 missiyasından yarım əsr sonra, gələn ilin noyabrında Aya növbəti insanlı missiyanı həyata keçirməyi planlaşdırır.

Qurum səfərdə iştirak edəcək amerikalı və kanadalı astronavtların adlarını açıqlayıb.

Artemis II missiyasına təyin edilmiş üç NASA astronavtı Reid Wiseman, Viktor Glover və Christina Koch Beynəlxalq Kosmik Stansiyada (BKS) vaxt keçirəcək, Kanada Kosmik Agentliyindən Jeremy Hansen isə ilk kosmosa uçuşunu edəcək.

BKS-də olarkən qadınların ilk kosmos yürüşlərində iştirak edən 44 yaşlı Koch Ay ətrafında uçan ilk qadın olacaq.

Dörd astronavtı NASA administratoru Bill Nelson ABŞ-nin Texas ştatının Hyuston şəhərindəki Conson Kosmik Mərkəzində keçirilən tədbirdə təqdim edib.